**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**AYGÜN AZƏR qızı HÜSEYNOVA**

# SOSİAL ŞƏBƏKƏLƏRİN DİLİN TƏDRİSİNDƏ ROLU

**HSM -060103- İngilis dilinin tədrisi metodikası və metodologiyası**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**DİSSERTASİYA**

**Elmi rəhbər:** ***Aytən Bayramova***
***Filologiya üzrə elmlər doktoru, dosent***

**BAKI-2022**

## MÜNDƏRİCAT

**GİRİŞ ........................................................................................................ 3**

**FƏSİL 1. XARİCİ DİLİN TƏDRİSİNDƏ İNTERNETİN İSTİFADƏSİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI ............. 6**

1.1. İnternetin təhsildə istifadə imkanları ............................................................... 7

1.2. Xarici dilin tədrisində internetin rolu ............................................................. 20

**FƏSİL 2. XARİCİ DİLİN TƏDRİSİNDƏ SOSİAL ŞƏBƏKƏLƏRİN İSTİFADƏSİ METODİKASI ............................................................. 29**

2.1. Sosial şəbəkələrin əsas xüsusiyyətləri və onların xarici dilin tədrisində istifadəsi ........................................................................................................ 31

2.2. Xarici dilin tədrisində sosial şəbəkələrin istifadəsinin prinsipləri .................... 46

**NƏTİCƏ .................................................................................................. 52**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ........................................................ 62**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Kompüter təlim sistemləri uzun müddətdir bütün dünyada təhsil prosesinin bir hissəsinə çevrilib. İldən-ilə kompüter texnologiyalarının təhsilə təsiri yalnız artır, hətta ənənəvi təhsil formalarını belə sıxışdırır. Yeni proqram platformaları və xidmətləri, video, səs faylı və rəqəmsal media formatları meydana çıxır, tədris materialının təqdim edilməsi imkanları daim genişlənir. Müasir kompüter əsaslı tədris vəsaitləri hazırda böyük əhəmiyyət kəsb edir, çünki ingilis dili xarici dil kimi tədris olunarkən bir sıra çatışmazlıqlar meydana çıxır və dərs prosesində olan bu kimi əksikliklər müəyyən tədris vəsaitləri ilə doldurulmalı olur. Qlobal kompüter şəbəkəsinin resurslarından istifadə mədəniyyətlərarası ünsiyyətin inkişafına xidmət edir, tələbələrə onları maraqlandıran elmi, peşə və sosial mövzulara dair məlumatların tapılmasına əhəmiyyətli dərəcədə kömək edir. Son illərdə ingilis dilinin xarici dil kimi tədrisi prosesində istifadə oluna bilən verilənlər bazası, internet saytları və məlumat axtarış sistemlərinin sayı xeyli genişlənmişdir. Bu gün internet resursları ən böyük informasiya mənbələrindəndir. Müasir kompüter texnologiyaları internetdən təkcə idraki fəaliyyət vasitəsi kimi deyil, həm də ünsiyyət və öyrənmə vasitəsi kimi istifadə etməyə imkan verir.

Hal-hazırda Azərbaycan Respublikasının dünya arenasında nüfuzunun artması, Avropa və Qərb ölkələri ilə iqtisadi və mədəni əməkdaşlığının genişlənməsi, ingilis dilinin tez və effektiv mənimsənilməsi zərurətinin yaranmasına səbəb olur və ingilis dilinin xarici dil kimi tədrisinə yeni tələblər qoyur. Formalaşmış kommunikativ səriştənin keyfiyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması zərurəti təhsil prosesinin təkmilləşdirilməsi üçün yeni texnologiyaların və tədris vəsaitlərinin istifadəsini tələb edir. Hazırda filologiya fakültəsinin tələbələrinə ingilis dilinin xarici dil kimi tədrisinin şərtlərində, məqsəd və məzmununda yaranmış dəyişikliklərlə əlaqədar yeni vəzifələr qoyulur. Azərbaycanda ingilis dilinin tədrisinə xüsusi əhəmiyyət verilsə də, təəssüf ki, hələ də bu sahədə doğma dil daşıyıcıları ilə daimi təmasların olmaması, autentik mühitin məhdud olması və s. kimi problemlər

mövcuddur. Dil mühitindən, doğma dil daşıyıcıları ilə qarşılıqlı ünsiyyətdən kənarda xarici dil öyrənən bir çox tələbələrin dil bilikləri çox vaxt yüksək səviyyədə olsa da, real ünsiyyət kontekstində onların bir çoxu müəyyən linqvistik və psixoloji çətinliklərlə (ana dilində danışanların nitq sürəti, şifahi nitqin xüsusiyyətləri; səhv etməkdən, səhv başa düşülməkdən psixoloji qorxu və s.) üzləşirlər. Tələbələrin doğma dil daşıyıcıları ilə müstəqil nitq fəaliyyəti təcrübəsi əldə etmə ehtiyacı, müxtəlif kommunikativ səriştələrin formalaşması yeni metodoloji həll yolları tələb edir.

Son onilliyin həm nəzəri, həm də (pedaqogika üçün xüsusilə vacib olan) praktik xarakterli çoxsaylı tədqiqatları müasir informasiya-kommunikasiya texnologiyalarının xarici dil öyrənmək prosesini əhəmiyyətli dərəcədə intensivləşdirə bilən fərqli didaktik xüsusiyyətlərə və metodoloji funksiyalara malik olduğunu təsdiqləyir. Bu gün artıq bu istiqamətin xarici dillərin, o cümlədən ingilis dilinin xarici dil kimi tədrisi nəzəriyyəsi və metodikası üçün perspektivli olduğunu sübut etməyə ehtiyac yoxdur.

İnternetin inkişafı ilə sosial şəbəkələrin və onların auditoriyasının sayı artır. Nəzərə almaq lazımdır ki, əvvəllər sosial şəbəkələr dil öyrətmək üçün nəzərdə tutulmayıb, lakin bu və digər proqramların linqvodidaktik potensialı onlara xarici dilin, o cümlədən ingilis dilinin tədrisində mühüm yer tapmağa imkan verir. Yuxarıda sadalananlar tədqiqat işinin aktuallığını müəyyən edən amillərdir.

**Mövzunun işlənmə dərəcəsi.** Dissertasiya işi "Sosial şəbəkələrin dilin tədrisində rolu" mövzusunu əhatə edir . Tədqiqat işini yerinə yetirərkən aşkar edilmişdir ki, bu mövzu ilə bağlı istər ölkəmizdə, istərsə də xarici elmi ədəbiyyatlarda çoxsaylı kitablar, tədqiqat işləri, elmi məqalələr və s. mövcuddur. Bu mövzu ölkəmizdə Ə.Ağayev, İ.İsmayılov, C.Abdullayev və bir çox başqa tədqiqatçı dilçi və müəllimlərimiz tərəfindən, M.Varşauer, J.R.Yanq, C.S.Levis və bir çox digər dilçi alimlər tərəfindən tədqiq edilərək çoxsaylı məlumat mənbələri hazırlanmış, bundan əlavə dəfələrlə buraxılış və dissertasiya işlərində tədqiqat obyekti olmuşdur.

Bununla belə, mövzu ilə bağlı bu qədər araşdırılma aparılmasına, haqqında bir çox kitab, elmi məqalə, tədqiqat işlərinin olmasına baxmayaraq, hələ də həll olunmamış

məsələlər qalmaqdadır. Təqdim edilən dissertasiya işində sosial şəbəkələrin xarici dilin tədrisində rolu kimi vacib məsələyə toxunulmuşdur.

**Tədqiqat işinin obyekti və predmeti.** Dissertasiya işinin obyektini xarici dilin tədrisində istifadə edilə biləcək sosial şəbəkələr, predmetini isə xarici dilin tədrisində sosial şəbəkələrin rolunun müəyyənləşdirilməsi təşkil edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi xarici dilin tədrisində sosial şəbəkələrin rolunu müəyyənləşdirməkdir. Tədqiqat işinin vəzifəsinə aşağıdakılar daxildir:

- İnternetin təhsildə istifadə imkanlarını araşdırmaq;
- Xarici dilin tədrisində internetin rolunu müəyyənləşdirmək;
- Sosial şəbəkələrin əsas xüsusiyyətləri və onların xarici dilin tədrisində istifadəsini vurğulamaq;
- Xarici dilin tədrisində sosial şəbəkələrin istifadəsinin prinsiplərini müəyyənləşdirmək;
- Eksperimental təhlil apararaq əldə edilən nəticələri təqdim etmək.

**Tədqiqatın elmi yeniliyi.** Xarici dil öyrənənlərin hədəf dildən istifadə imkanlarının genişləndirilməsi, onlara xarici dili doğma dil daşıyıcılarından öyrənmələrinə şəraitin yaradılması, dil öyrənmə prosesinin sinifdən kənarda da davam edə bilməsi məqsədilə texnologiyadan, xüsusən də sosial şəbəkələrdən istifadə zərurəti yaranır. Ölkəmizdə texnoloji vasitələrin, internetin tədris prosesində istifadəsi məsələsi bir çox tədqiqatlarda araşdırılsa da sosial şəbəkələrin dil tədrisindəki rolu haqqında geniş tədqiqatlar aparılmamışdır. Ötən 2 il ərzində pandemiya şəraiti sosial şəbəkələrin tədrisdə istifadəsi məsələsini daha da aktuallaşdırdığından bu mövzu istər adına, istərsə də tədqiqat obyektinə görə də bu vaxta qədərki işlərdən fərqlənir. Dissertasiya işində sosial şəbəkələrin xüsusiyyətləri, onların xarici dilin tədrisində istifadəsi və prinsipləri haqqında təqdim edilən məlumatlar tədqiqat işinin elmi yeniliyini təşkil edir. Bundan əlavə tədqiqat işi ilə bağlı eksperimental tədqiqat aparılaraq əldə edilən məlumatlar da tədqiqat işinin elmi yeniliyinə daxildir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin fəsillərində sosial şəbəkələrin xüsusiyyətləri, xarici dilin tədrisində istifadəsi və prinsipləri ilə bağlı verilmiş məlumatlar onun nəzəri əhəmiyyətini təşkil edir. Dissertasiyanın praktik əhəmiyyətini isə tədqiqat işində öz əksini tapan məlumatlardan, əldə olunmuş nəticələrdən konfrans, seminar və dərs vəsaitlərində xarici dilin tədrisi zamanı istifadə edilə bilməsi təşkil edir.

**Tədqiqatın metodu.** Tədqiqat işini yerinə yetirərkən, qarşıya qoyulan məqsədə çatmaq üçün müxtəlif metodlardan istifadə edilmişdir. Həmçinin, tədqiqat işini yerinə yetirilən zaman müşahidə, təsviri və linqvistik metodlardan istifadə olunmuşdur.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqat işi ADU-nun Təhsil fakültəsinin nəzdində Təlimdə İnnovasiyalar kafedrasında yerinə yetirilmişdir. Dissertasiya mövzusuna uyğun "Xarici dilin tədrisində sosial media və rəqəmsal vasitələrdən istifadə" adlı bir məqalə çapdan çıxmışdır . Tədqiqat işi ilə bağlı kafedraya hesabatlar təqdim edilmişdir.

**Dissertasiyanın strukturu**. Dissertasiya işi giriş, iki fəsil, beş yarımfəsil, əldə edilmiş nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# FƏSİL 1. XARİCİ DİLİN TƏDRİSİNDƏ İNTERNETİN İSTİFADƏSİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI

## 1.1. İnternetin təhsildə istifadə imkanları

İnternet 20-ci əsrdə sürətlə bəşəriyyətin həyatına daxil olmağa başladı. İnternetin bütün dünyaya, o cümlədən inkişaf etməkdə olan ölkələrə yayılması faktı ilə üzləşmək, bizim on ildən az vaxtımızı apardı. İnternet nəinki dünyanın ən nəhəng informasiya resursu, hətta ən sürətli kommunikasiya vasitəsi hesab olunur. Müxtəlif ölkələrdən olan insanlar bu vasitə sayəsində qısa müddət ərzində bir-biri ilə ünsiyyət qurmaq imkanı əldə edirlər. Adi poçt və ya hətta hava poçtu ilə müqayisədə elektron poçt məsafəni və vaxtı, ildırım sürəti ilə aşır.

Beləliklə, insanlar internet vasitəsilə qarşılıqlı əlaqə və ünsiyyət qururlar. İnsanlar bir-birini daha yaxından tanımaq, müxtəlif xalq və millətlər arasında hansı xüsusiyyətlərin oxşar, hansılarının fərqli olduğunu, qarşılıqlı əməkdaşlığa nail olmaq üçün mədəniyyətin və dinin hansı xüsusiyyətlərini nəzərə almaq lazım olduğunu dərk etmək şansı qazanırlar. Onlar yavaş-yavaş başa düşürlər ki, biz hamımız bir planetin – Yer kürəsinin sakinləriyik və bir-birimizə kömək edərək birlikdə yaşamağı bacarmalıyıq. Lakin internet bu prosesi anlamaq üçün vasitələrdən yalnız biridir və mövcud texnoloji, informasiya imkanları bu vasitəni dərindən tədqiq etməyə imkan yaradır. Hər bir amil insanların özündən, mentalitetindən, iradəsindən, intellektindən asılıdır.

T.Kononelos və M.Oliviyanın fikrincə, "İnternet ümumi proqram təminatı standartından istifadə etməklə məlumat mübadiləsi üçün bir-biri ilə əməkdaşlıq edən kompüter şəbəkələrinin dünya miqyasında məcmusudur" [20, s.527]. İnternet telefon naqilləri, radio tezliyi kimi simsiz media, peyk bağlantıları və s. vasitəsilə kompüterləri TCP/IP protokollarını paylaşan digər kompüterlərə birləşdirən şəbəkədir. İnternet başqa bir kompüterdə fayl və ya sənədlərdə saxlanılan məlumatların daşınma vasitəsidir. Belə bir şəbəkəni kompüterlərə xidmət edən beynəlxalq rabitə xidməti ilə

müqayisə etmək olar. Bəzən interneti nəhəng beynəlxalq santexnika sistemi ilə də müqayisə edirlər.

İnternet yaranandan bəri mühüm ünsiyyət vasitəsi olmaqla yanaşı, tədqiqat və istirahət vasitəsinə də çevrilmişdir. Bunun əsas səbəbi odur ki, internet dünyanın hər yerindən olan insanlara müxtəlif yollarla bir sıra imkanlar təqdim edir. Təkcə internet deyil, digər yeni rəqəmsal texnologiyalar da gündəlik həyatda mühüm yer tutur. Bu kimi texnologiyalardan istifadə insanların həyatını asanlaşdıraraq onlara böyük imkanlar təklif edir. İnsanlar internetdə istənilən növ məlumatı asanlıqla tapır və ondan təhsil, əyləncə, sağlamlıq və s. məqsədləri üçün də istifadə edirlər. İnternet insanlara bir çox xüsusiyyətlər təklif etsə də, onlardan daha əhəmiyyətli hesab olunanlar – müxtəlif insanlarla ünsiyyət qurmaq və məlumat toplamaqdır. Daha əhatəli əsasda qeyd etmək olar ki, internet xüsusilə təhsil sahəsində bəzi funksiyalara malikdir: məlumat bazası, sərhədsiz ünsiyyət, onlayn interaktiv öyrənmə, elektron/onlayn tədqiqat, yeni dünyada innovasiya, öyrənməyə marağı artırmaq, qlobal təhsil və məlumat kataloqları kimi sıralamaq olar [22, s.606]. İnternetin müxtəlif funksiyaları olduğundan ondan ali təhsildə tələbələrin akademik məqsədlə nə dərəcədə istifadə etdiyini nəzərə almaq vacibdir.

İnternetdən istifadənin maarifləndirici tərəfinə nəzər saldıqda aydın olur ki, tələbələr və ya ümumiyyətlə, informasiya axtaran insanlar, ona asanlıqla və cüzi ödəniş qarşılığında daxil ola bilirlər. Aydındır ki, internet nəhəng məlumat mənbəyidir və onun vasitəsilə hər bir məlumata sürətli və asan şəkildə çatmaq olar. İnternet, həmçinin, tələbələrə istənilən vaxt və məkanda məlumat əldə edə biləcəkləri asinxron təhsil verir, tələbələrin dünyagörüşünü genişləndirir. Qeyd etmək lazımdır ki, hal-hazırda tələbələr kitabxanalardan və ya hər hansı real həyat resurslardan istifadəni elə də üstün tutmadıqları halda, onlar internet vasitəsilə istənilən veb-sayta onlayn daxil olub, onlardan asanlıqla və tez faydalanmağı seçirlər. Bundan əlavə, internet bütün dünyada ən son xəbərləri öyrənmək, eləcə də hobbi, sağlamlıq və digər mövzular haqqında daha çox məlumat əldə etmək kimi müxtəlif məqsədlərə xidmət edən bir vasitə kimi istifadə

oluna bilər. Bu səbəbdən demək olar ki, internet – informasiyanın sürətlə geniş auditoriyaya yayılması, zaman və məkan məhdudiyyətindən kənara çıxma mənbəyidir.

İnternetin ən böyük istifadəçi kütləsi kimi bilinən tələbələrə gəlincə, internetdən istifadə əsasən sosial və əyləncə məqsədləri üçün nəzərdə tutulub, çünki internet inqilabı təkcə məlumat tapmaqla məhdudlaşmır, həm də insanları bir araya gətirir. Bununla belə, çox aydındır ki, internet təkcə sosial əlaqə və əyləncə deyil, həm də akademik və elmi məlumat verir. Beləliklə, tələbələri bu əvəzolunmaz mənbədən akademik işlərində məqsədlərinə müvafiq olan hər cür məlumatı əldə etmək üçün istifadə etməyə təşviq etmək həyati əhəmiyyət kəsb edir, çünki təhsildə lazımi şəkildə istifadə edilmədikdə internetin inkişafı mənasız sayıla bilər. Buna görə də, bütün dünyada ali təhsil müəssisələrində, eləcə də təhsil sisteminin digər bölmələrində yeni rəqəmsal texnologiyalar geniş şəkildə tətbiq olunur. İnternetdən istifadə təhsilin keyfiyyətini yüksəltmək potensialına malikdir. S.Çarp həmçinin bildirib ki, "...internet müəllimlər və təlimatçılar üçün çoxsaylı müsbət dəyişikliklər gətirib" [19, s.10]. O.E.Drayli və D.E.Kinnamanın fikrincə, "...internet tələbələrə informasiya tapmağa, eləcə də onlara tənqidi və yaradıcı düşünməyə, əməkdaşlıq edən işçilər olmağa və problemləri həll etməyə imkan verir" [23, s.57].

Bu gün yaşadığımız yeni texnoloji dövrün tələbələri mövcud pedaqoji vasitələrin təsirinə məruz qalırlar və bu zaman nəzərə almaq lazımdır ki, kiberməkanda onlayn və oflayn məlumat bazalarından, eləcə də veb axtarış sistemlərindən səmərəli istifadə etmək bacarığı tələbələr üçün böyük əhəmiyyət kəsb edir. Bu günün tələbə, alim, tədqiqatçı, müəllim və repetitorlardan düzgün məlumat əldə etmək bacarığı da tələb olunur ki, bu prosesdə özlüyündə tələbələrin qeyri-məhdud informasiyalar arasında lazımi və dəqiq məlumat toplamaq bacarığını formalaşdırır. İnternet saysız-hesabsız informasiyalarla əhatə olunduğundan doğru məlumatı tapmaq da tələbələrin əsas vəzifələrindən biri hesab olunur. M.Nentviçin dediyi kimi, qarşı tərəf informasiya məkanını təşkil edir, strukturlaşdırır və qiymətləndirir [22, s.607]. J.Börgis tərəfindən müəyyən edilmiş üç mühüm internet savadını qeyd etmək zərurətdir: (i) Tənqidi

savadlılıq – İnternetin dərin, sosial kontekstli və məlumatlı anlayışı; (ii) Yaradıcı savadlılıq – İnformasiya yaratmaq və mənimsəmək üçün internetlə təcrübə aparmaq bacarığı; və (iii) Şəbəkə savadlılığı – Ünsiyyət, əməkdaşlıq qurmaq və bilikləri bölüşmək üçün bir sıra internet texnologiyalarını effektiv və etik cəhətdən manipulyasiya etmək bacarığı və impulsu [16, s.104].

Digər tərəfdən, müxtəlif ölkələrdə insanlar təkcə mədəniyyət və elm mərkəzlərində deyil, məşhur universitetlərdə təhsil ala bilirlər. Fiziki məhdudiyyətli tələbələr də  məktəb, kollec və universitetlərdə məsafədən təhsil ala bilərlər. Məktəb, universitet, kolleclərdə distant formada təhsil alan tələbələr pulsuz dərs vəsaitlərindən, ədəbiyyatlardan, ensiklopediyadan, istinadlardan, lüğətlərdən, məlumat bazalarından istifadə etməklə, eləcə də digər məktəb, universitet, ölkələrdən olan tələbələrlə birgə layihələrdə öz biliklərini artıra, onlarla müxtəlif problemləri müzakirə edə bilərlər.

Beləliklə, internetin təhsil sahəsində təklif edə biləcəyi imkanlar həqiqətən unikaldır və aparılan tədqiqatlar sübut edir ki, internet xüsusilə təhsil üçün ixtira edilmiş bir vaistədir. Lakin xüsusilə təhsil məqsədləri üçün çox az sayda texniki yardım vasitələr hazırlanmış və istehsal edilmişdir. Pedaqoqlar həmişə bu və ya digər ixtiranın didaktik imkanlarını araşdırmalı, ondan təhsil sferasında necə uğurla istifadə oluna biləcəyini, yəni onun didaktik funksiyalarını tədqiq etməli olmuşlar. İnternetin təhsildə rolunu nə çox qiymətləndirmək, nə də onu qiymətləndirməmək düzgün deyil: təhsil prosesində bu rolu və yeri müəyyənləşdirmək çox vacibdir.

Bunun üçün ayrı-ayrı təhsil sistemlərində qəbul edilmiş təhsil konsepsiya və məqsədlərinə istiqamətlənmək lazımdır. Bir çoxumuz informasiyanın böyük dəyərə malik olduğu bir cəmiyyət yaşayırıq; bəziləri isə belə cəmiyyətin astanasındadır. Məşhur amerikalı iqtisadçı Lester C.Turou "*Kapitalizmin Gələcəyi. Bugünkü İqtisadi Qüvvələr Sabahın Dünyasını necə formalaşdırır*" adlı kitabında vurğulayır ki, gələcək uzun illər üçün ən böyük dəyər bilik və ixtisas olacaq, çünki bilik keyfiyyətlə təzahür edə bilər [33, s.6]. İnkişaf etmiş ölkələrdə texnologiyaların səviyyəsi elə bir həddə çatıb

ki, onun peşəkar mütəxəssislərə ehtiyacı var. İnternetdən səmərəli istifadə olunarsa, o, bu prosesi təşviq edə bilər.

Belə ki, yuxarıda qeyd olunan dəyərlərə adekvat olan və bir çox ölkələrdə prioritet kimi qəbul edilən müasir təhsil konsepsiyası iddia edir ki, bu gün təhsilin əsas məqsədləri tələbələrin intellektual və mənəvi inkişafı, onların tənqidi və yaradıcı təfəkkürünün artırılması, informasiya ilə iş qabiliyyətinin püxtələşməsi olmalıdır. Konstruktivizmin təhsil nəzəriyyəsi, tənqidi təfəkkür və fəaliyyətin psixoloji nəzəriyyələri dünyanın mütərəqqi pedaqoqları tərəfindən zamanın tələblərinə cavab verən nəzəriyyələr kimi qəbul edilir. Əldə edilmiş biliklərin təkrar istehsalının təhsilin əsas məqsədi olduğu zamanlar artıq geridə qaldı. İndi insanlar istənilən sahədə öz peşəkarlıqlarını qorumaq üçün ömür boyu öyrənməyə davam edirlər. Beləliklə, internetin təhsildə əhəmiyyəti həqiqətən də böyükdür. Lakin insanların həyatında internetin olması faktı, onlayn resurslara çıxış imkanı onun səmərəliliyinə zəmanət vermir. Ali və ya orta təhsildə internetin istifadəsinin səmərəliliyi bir çox amillərdən asılıdır.

Bu amillər arasında ən mühüm olanı istifadəçinin informasiya ilə işləmək bacarığıdır. İnformasiya ilə işləmək bir çox tələbələrin malik olmadığı müxtəlif növ intellektual bacarıqlardan istifadə etməyi tələb etdiyinə görə, elə də sadə bir proses hesab olunmur. Belə bir nəticəyə gəlmək olar ki, tələbə məşğul olduğu məlumatı təhlil etməyi, araşdırdığı problemə adekvat olan faktları, məlumatları seçməyi bacarmalı, öz fikrini sübut etmək üçün arqumentlər tapmalıdır. Tələbənin internetdə rastlaşdığı məlumatların heç də həmişə faydalı olmadığı aydındır. Bundan əlavə, internetdəki məlumatların hamısı elmi olmaya da bilər. İnternet hər bir istifadəçinin məlumat tapa biləcəyi çox demokratik bir mühitdir. İnternetdə bir çox tədris materialları var və onların heç bir xüsusi yoxlama prosesindən  keçmədən şəbəkəyə yerləşdirilir. Bu fakt hətta müəllimin tədris məqsədləri üçün material seçməsində bir çox çətinliklər yaradır. Belə bir problemi həll etmək üçün insan öz peşə sahəsində bacarıqlı olmalıdır. O, materialı təhlil edib öz tələbələrinə tövsiyə etməyi bacarmalı, məlumatı seçən tələbələr

də bu və ya digər materialın tədris prosesində qüsursuz olub-olmadığını müəyyən edə bilməlidir.

Beləliklə, effektiv təhsil üçün sadəcə internet informasiya resurslarına çıxış kifayət deyil. Tələbələri informasiya ilə işləməyə əvvəlcədən hazırlamaq və ya distant təhsil formasından istifadə edənlərə tənqidi təfəkkür, şifahi mətnlərlə işləmək, multimedia mühiti yaratmaq, intellektual düşüncə bacarıqlarını inkişaf etdirmək üçün nəzərdə tutulmuş xüsusi tapşırıqlar vermək, hər cür sosial mühit yaratmaq lazımdır. Başqa sözlə, bu, onların tənqidi təfəkkürünü inkişaf etdirmək deməkdir. Hər bir təhsil sisteminin məqsədi olmalıdır. Deməli, əvvəlcədən təyin olunan məqsəd təhsildə internetin səmərəliliyinə təsir edən birinci amildir. Bundan əlavə, nəzərə almalıyıq ki, şəbəkədə elektron mətnləri oxumaq çap mətnləri oxumaq kimi deyil. Biz onu hərtərəfli oxumaqdansa, onu nəzərdən keçirməliyik, sonra yükləməyə və daha diqqətli şəkildə nəzərdən keçirilməyə uyğun olub-olmamağına qərar verməliyik.Elə bu səbəbdən, tələbələrə mətnləri tez nəzərdən keçirməyi, idrak vəzifəsi baxımından onlar üçün maraqlı olan əsas fikirləri seçməyi öyrətmək lazımdır. Bu baxımdan London Universitetinin Təhsil İnstitutundan Stiven Piklsin verdiyi bəzi tövsiyələri qeyd edə bilərik. O, istifadəçiyə tapdığı hər yeni internet resursu haqqında bir neçə əsas sual verməyi tövsiyə edir: 1. Kim? 2. Nə vaxt? 3. Harada? [33, s.7]

İkinci amil şəbəkədə ünsiyyət mədəniyyəti, xüsusən də mədəniyyətlərarası ünsiyyətlə bağlıdır. Bu, həlli çox vacib və mürəkkəb problemdir. Fakt budur ki, bir çox insanlar salamlaşmanın adekvat formalarından istifadə etmək, qısa və lakonik yazmaq, ədəbi dil normalarına əməl etmək, ixtisarlardan qaçmaq və s. baxımından ünsiyyət mədəniyyətinə malik deyillər. Mədəniyyətlərarası, transmilli ünsiyyətə gəlincə, bu problem xüsusilə aktualdır. Yad mədəniyyətlər, milli adət-ənənələr, müxtəlif konfessiyaların xüsusiyyətləri və s. haqqında məlumatın olmaması tərəfdaşlar arasında anlaşılmazlığa səbəb olur və münaqişənin yaranmasına şərait yaradır. Yeni texnologiyalar, həmçinin, müxtəlif millətlərdən olan insanlar arasında ünsiyyət vasitəsidir. Onların bir-birini başa düşməsi və ya anlamaması, simpatiyası və ya

antipatiyası texnologiyadan deyil, insanların bir-birinin mədəniyyətinə və adət-ənənələrinə hörmətindən, bu mədəniyyətlərin özəlliklərini bilməsindən asılıdır. Mədəniyyətlərarası ünsiyyətin səmərəli şəkildə qurulması texnoloji deyil, insan faktorudur. Deməli, problemi ancaq təhsil prosesinə cavabdeh olan müəllimlərin, repetitorların köməyi ilə həll etmək olar. Müxtəlif mədəniyyətlərə malik olan insanlar arasında anlaşılmazlıq təkcə müəyyən bilik əldə etmək problemi deyil, həm də tolerantlıq problemidir. Müəllim, tyutor və repetitorlar tələbələri lazımi məlumatlarla təmin etməyə, onlara yad mədəniyyətin xüsusiyyətlərini izah etməyə hazır olmalıdırlar. Təhsildə internetin effektiv olmasını istəyiriksə, müəyyən qədər ilkin hazırlıq aparmaq lazımdır. Tənqidi təfəkkürün inkişafı müəyyən biliyə, təcrübəyə, müşahidə gücünə malik olmağı tələb edir. İnternet insanları bir-birinə yaxınlaşdırmaq, qarşılıqlı anlaşma üçün imkanlar yaradır, lakin bu imkanların reallaşması insanların özündən, onların əqli və mənəvi qabiliyyətlərindən, başqalarının fikirlərini başa düşmək və bölüşmək istəyindən asılıdır.

Təhsildə internetdən istifadənin səmərəliliyinə təsir edən növbəti amil müəllimlərin əksər hallarda internetin informasiya resurs və imkanlarının distant təhsil bir yana, tədris və təlim prosesinə inteqrasiyası təcrübəsinə də hazır olmamasıdır. Bir çox ölkələrdə təhsil institutları gələcək müəllimləri internet resurslarının idarə edilməsi üzrə xüsusi fəaliyyət üçün hazırlamır. Bəzi ölkələrdə müəllimlərin ixtisasının artırılması üzrə xüsusi assosiasiyaların təşkili ilə əlaqədar vəziyyət dəyişir. Ancaq yenə də bir çox müəllimlər və pedaqoqlar internet texnologiyalarından istifadəni, layihələr üçün bəzi materialların, hesabatların, esselərin tapılmasını, zəruri hallarda elektron poçtdan istifadəni və s. müstəqil fəaliyyət hesab edirlər. Amma əslində təhsildən danışırıqsa, nəzərə almalıyıq ki, tədris prosesi qarşılıqlı, interaktiv fəaliyyətdir, ona nəzarət edilməli və istiqamətləndirilməlidir. Tələbələr internetdə olan hər hansı kursu və ya materialı təkbaşına öyrənməli olsalar belə, onlara bunu necə etmək, internetdə və ya digər resurslarda hansı əlavə məlumatlardan istifadə etmək lazım olduğu barədə

müəyyən təlimatlar verilməlidir. Deməli, bu problem müəllimlərin istər ali məktəblərdə, istərsə də ixtisasartırma kurslarında hazırlanması ilə bağlıdır.

Distant təhsil, bütün dünyada istifadə edilən təhsil formasıdır. Hal-hazırda həm orta təhsildə, həm də ali məktəblərdə çox istifadə olunduğu halda, pedaqoji proqnoz istər orta məktəbdə, istərsə də ali məktəbdə ənənəvi və distant təhsilin inteqrasiyasını məqbul hesab edir. Cəmiyyətdə distant təhsilə tələbat güclüdür. Bunun sosial, iqtisadi və mədəni səbəbləri var. İndi müxtəlif ölkələrin təhsil işçiləri hesab edirlər ki, distant təhsil ənənəvi təhsil sistemində yeni formadır. Bu, müəllim (və ya repetitor) ilə tələbələr arasında qarşılıqlı əlaqənin əsas prinsip olduğu tədris və təlim prosesidir. Belə olduğu halda, distant təhsil, ənənəvi təhsillə eyni məqsədləri, standartları və məzmunu nəzərdə tutur. Burada da konstruktivizm və tənqidi düşüncə ideyaları prioritet kimi qəbul edilir.

Distant təhsil formasında istifadə olunan əsas pedaqoji texnologiyalar əsasən əyani təhsillə eynidir, lakin onlar internet texnologiyalarının köməyi ilə həyata keçirilir ki, bu da onlara bəzi mühüm xüsusiyyətlər verir. Təhsilin məzmunu da internet texnologiyalarının təsiri altında qurulur. Distant təhsil metodları kifayət qədər tanınır: əsas mühazirə, kiçik qruplarda əməkdaşlıq və ya birgə təlim, layihə metodu, müzakirələr, beyin fırtınası və s. Bir müddət əvvəl bəzi pedaqoqlar distant təhsili ya qiyabi kursların modifikasiyası, ya da öz-özünə təhsil hesab edirdilər. İnternetdə belə kursların sayı çoxdur. Bir çox ölkələrin təcrübəsi göstərir ki, müxtəlif yaşda olan tələbələrin əksəriyyəti müəllim, repetitor və ya mütəxəssis adlandırdığınız hər hansı bir şəxslə öyrənməyə üstünlük verirlər. Distant təhsil internet resursları və imkanları sayəsində tələbələrə yüksək ixtisaslı mütəxəssislərlə məsləhətləşmək, distant kurs keçmək, kurs yoldaşları ilə fikirlərini bölüşmək, kitabxanalara, muzeylərə, məlumat bazalarına çıxış əldə etmək imkanı verir. Bu təhsil növü əlbəttə ki, ənənəvi təhsillə eyniləşdirilə bilməz. Bununla belə, əyani təhsil və ya hər hansı digər təhsil formaları kimi distant təhsilin effektivliyi müəyyən amillərdən asılıdır. Onların bir çoxu yuxarıda sadalanan faktorlardır.

Bir çox ölkələr üçün birinci və ən mühüm problem distant təhsilin qanuniliyidir. Bir çox pedaqoqlar etiraf etməlidirlər ki, işəgötürənlər distant təhsil sertifikatlarına kifayət qədər şübhə ilə yanaşırlar. Onlar açıq şəkildə distant təhsili icmalar tərəfindən yüksək qiymətləndirilməyən qiyabi kurslarla eyniləşdirirlər. Əslində distant təhsilin effektivliyi əyani təhsildən daha yüksək ola bilər. Yenə də, hansı təhsil formasının daha məqsədəuyğun və zəruri hesab olunması bir çox amillərdən asılıdır.

Təhsil prosesində internetdən istifadə edilərkən işçi heyət və rəhbərliyin peşəkarlığı çox önəmlidir. İnternet müxtəlif ölkələrdən olan repetitor və müəllimlərin öz təcrübələrini bir çox veb-saytlarda paylaşa biləcəkləri telekonfranslar vasitəsilə daha səmərəli şəkildə istifadə oluna bilər. Virtual məktəb və universitetlərin portalları da faydalı ola bilər, çünki onlar elmi mərkəz, məktəb və universitetlərdən yüksək ixtisaslı mütəxəssisləri işə götürürlər.

Elektron dərsliklər, əlavə tədris materiallarının hazırlanmasında keyfiyyət problemi də az əhəmiyyət kəsb edən bir məsələ deyil. Bu problemin əhəmiyyəti yuxarıda qeyd olunduğu kimi ümumilikdə internet resursları üçün aydındır, lakin distant təhsil mövqeyindən, tədris materialları ilə bağlı problemlərin sayı hədsiz dərəcədə artmaqdadır. Elektron tədris və təlimat materiallarının hazırlanması komanda yanaşmasını tələb edir. Bu o deməkdir ki, çap vəsaitlərindən fərqli olaraq, elektron materialların hazırlanması müxtəlif mütəxəssislər tələb edir: mövzu üzrə mütəxəssislər, metodistlər, proqramçılar, dizaynerlər və s. Bu kimi təhsil məhsullarının hazırlanması həmişə mürəkkəb proses hesab olunub. Nəzərə almaq lazımdır ki, müxtəlif kollektivlərdə aparıcı mütəxəssislər fənn eksperti və metodistdir, bu isə o deməkdir ki, pedaqoji ideyalar üstünlük təşkil edir.

Hər bir təhsil prosesində olduğu kimi, internetdə də, tələbə öz təliminin əsas iştirakçısıdır. Tələbələrin öyrənmə tapşırığına rəhbərlik edən bəzi məsləhətçilərlə yanaşı, onlara məsləhət verən, müşayiət edən və işdə bələdçilik edən müəllimləri var. Təlimdə internet vasitəsilə tələbələr öz məsləhət, təklif, sual və qiymətləndirmələrini elektron poçt və ya forum vasitəsilə müəllimlərinə göndərirlər. Öz növbəsində,

müəllim, repetitorlar da istiqamət və məsləhətlərini elektron poçt vasitəsilə təqdim edirlər. Repetitorluq ofisi 24 saat açıqdır. Bu, hər kəs üçün bir üstünlük və qənaətdir.

Tədris proseslərində repetitorların böyük əhəmiyyəti var. Təlimçi-şagird əlaqəsi qeyd olunan xəttin izlənilməsini və qarşıya qoyulan məqsədlərə nail olunmasını asanlaşdırır. İnternet elektron poçt kimi digər xidmətlərdən istifadə edərək mövcudluq əlaqəsini əvəz edir. Xidmət repetitorla sürətli və davamlı ünsiyyətə zəmanət verməklə distant təlimdə baş verə biləcək təcrid hissini aradan qaldıra bilər. Tərbiyəçi üçün internet əlavə güclü alət təklif edir, çünki tələbənin təsvir edə biləcəyi bir çox sualın cavabı internetdə var. Bu hallarda repetitor rahat internet ünvanını təklif etməlidir. Elektron poçt, yazılı ünsiyyət üsulu olduğundan, sualların daha obyektiv, refleksiv və düşünülmüş şəkildə təqdim edilməsinə üstünlük verir.

İnternetin bir çox insanın təhsil prosesində əvəzsiz rol oynadığı danılmazdır. İnternet məlumatlandırmaq, öyrətmək qabiliyyətinə, mükəmməl texnoloji arxitekturaya əsaslanan və demək olar ki, hər bir sahəni əhatə edən bir şəbəkə hesab olunur. Bu yeni şəbəkə vasitəsi ilə biz birlikdə yeni məlumatlar əldə edə; mağazaları, kitabxanaları gəzə ; muzeyləri, ekzotik yerləri, folklorları tanıya; müxtəlif təklif və təcrübələrdən yararlana bilərik.

Əslində, İnternet bizi ən böyük bilik axınları ilə təmin edir. Belə bilik axınları vasitəsilə saysız-hesabsız problemlər həll edilə, istənilən məlumat asanlıqla mənimsənilə bilər. İnternet insanları bir çox imkanlarla təmin edir ki, bu imkanlara:

- Müstəqil öyrənmənin təmin edilməsi;
- Başqa mədəniyyətlərə qarşı açıqlığın, mədəniyyətlərarası səriştənin formalaşdırılması;
- ifadə azadlığının stimullaşdırılması, çoxistiqamətli qarşılıqlı fəaliyyət perspektivi ilə virtual görüşlərlə bağlı rəylərin istifadəçilərin istədiyi sayda və sərfəli olması daxildir [33, s.53].

Distant təhsildə daha iki problem haqqında məlumat vermək olar: iştirakçıların psixoloji qarşılıqlı əlaqəsi və dil maneəsi. Analitik sorğuda bəzi müəlliflər birinci

problemi daha üstün hesab edirlər. Üz-üzə ünsiyyətdən fərqli olaraq, distant ünsiyyətin özünəməxsus psixoloji xüsusiyyətləri vardır. İştirakçılar videokonfransdan istifadə etmədikləri halda, bir-birlərini görmürlər. Bir tərəfdən, bu, özünü ifadə azadlığını stimullaşdırır, digər tərəfdən , bəzən arzuolunmaz ifadələrə, anlaşılmazlığa və hətta münaqişəyə təşviq edəcək davranışlara səbəb olur. Bu problem kiçik əməkdaş qrupları formalaşan zaman daha vacib amil hesab olunur. Yaranan problem əsasında mütəxəssislər tərəfindən araşdırma və təcrübələr aparılır. Nəinki öz ölkəsində, hətta hansısa xarici universitetdə təhsil almaq istəyən tələbələr üçün distant təhsili əlçatmaz edən digər problem isə vaxtla bağlıdır. İnternetdəki məlumatların böyük hissəsi ingilis dilindədir. İnternetdə ingilis dili üstünlük təşkil edir, lakin digər ölkələrin informasiya məkanı sürətlə inkişaf edir. Beləliklə, bir deyil, iki və daha çox xarici dil öyrənmək bütün ölkələrin təhsil sistemləri üçün çox aktual problemə çevrilir. YUNESKO-nun qarşıdan gələn əsri "Poliqlotlar əsri" adlandırmasının səbəblərindən biri də budur [33, s.54].

İnternet, təhsil və təlim prosesində bəzi öyrənmə nəzəriyyələri ilə dəstəklənir. İnternetə çıxış vasitəsilə bütün hipermətn materialının öyrənmə vasitəsi olduğu dərhal aşkar edilir. Başqa sözlə, bu nəhəng mətn qrupları və multimedia kontekstləri xətti oxumaq üçün yaradılmayıb, əksinə, remissiya etmək, müxtəlif hissələri şərh etmək və ya digər mətnlərlə əlaqə yaratmaq prinsipinə əsaslanır. Yəni, internet səbəb və ya nəticədən asılı olmayaraq, kodlaşdırılmış və qeydiyyata alınmış, məlumat ötürən və ötürülmə ilə müşayiət olunan və ya əldə edilən digər prosesləri özündə cəmləşdirən bir vasitədir, alətdir. Əgər əvvəllər bəzi öyrənmə nəzəriyyələrinin alətlərinin xüsusiyyətləri və prinsipləri qəbul və ifadə edilmişsə, bu, insan üçün etibarlı öyrənmə fürsəti olacaqdır. İnternet həmin nəzəriyyələrdən bəzilərinin prinsipləri baxımından xüsusilə münasib olsa da, qeyd etmək lazımdır ki, kommunikasiya ətrafında inkişaf etdirilən texnoloji resurslar qrupunda onların heç biri təhsil məqsədi ilə yaradılmamışdır. Onların demək olar ki, hamısı ictimai həyatın, asudə vaxtın, istehsal sistemlərinin və iqtisadiyyatın ən ümumi cəhətləri ilə bağlı yaradılmışdır. Buna baxmayaraq, yeni

texnologiyalar fərdlərə konstruktiv, yaradıcı, özünü tənzimləyən, aktiv və interaktiv dünyada yaşamağa kömək edir və müstəqil öyrənməyə təkan verir.

Öyrənmə yollarının və biliklərinin formalaşmasında konstruktivizm nümunəsi öyrənmə aləti kimi internetlə uyğunlaşır. Konstruktivizm nümunəsi, hisslərimiz sayəsində əldə etdiyimiz elementlərin və bu elementləri araşdırmaq üçün istifadə etdiyimiz zehni marşrutların artıq aid olduğumuz mühitdə formalaşdığını güman edir, bizi isə öyrənməyə vadar edir.

Biz öyrənməyə davam edirik, lakin yeni bir məlumat aldığımız və ya bir fikri başqası ilə əvəz etdiyimiz üçün deyil, biliyimizi dəyişdirdiyimiz üçün öyrənirik. Problemləri aktiv və orijinal şəkildə yaşayıb həll etməklə öyrənmək insanın müsbət fəaliyyətidir. Bu proses biliklərin dəyişdirilməsi, əvəz edilməsi və toplanmasından fərqlənir. İndi tələbələr əvvəlki təcrübələrindən istifadə edərək biliyi zənginləşdirməyə çalışırlar. Təlimat öyrənmə prosesinin mərkəzində yer alan tələbələrə yönəldilmişdir. Bütün bu vasitələr əsaslı şəkildə biliyi aşılamağa deyil, tələbəyə şəxsi müstəqilliyə üstünlük verən, özünü tənzimləmə və ya mənimsəmə prosesi üzərində nəzarəti təmin edən fəaliyyət vasitəsilə bilik qurmağa kömək etməyə əsaslanır.

Bu mənada, səhvlər təlim prosesinin zəruri komponentləridir. Tədris prosesində pedaqoq təlimatçı deyil, tələbələrin tədqiqat işi vasitəsilə biliklər qura bildiyi mühitin generatoru kimi çıxış edir. Bu mühit maraqların artması, daha yaxşı başa düşülməsi və öyrənmənin təqibi üçün tapşırıqları yerinə yetirməkdə motivasiyaya əlverişli təsir göstərəcəkdir.

Tələbə məlumatı mənimsəməyi və ya informasiya üzərində işləməyi bacarsa, öyrənmə fəaliyyəti daha səmərəli şəkildə təşkil olunacaq. Öyrənmə konstruktiv bir prosesdir. Bu o deməkdir ki, öyrənmənin əsas fəaliyyətləri tələbələr üçün mənaların qurulmasına rəhbərlik edir.

Konstruktiv öyrənmə sahəsi internetdə "düzgün və səhv" eksperimental oyununa imkan verən bir alət tapır, orijinal bilikləri inkişaf etdirmək imkanı təklif edir. Maraqları çoxşaxəli və açıq sistem olduğundan onun tədqiqi çoxistiqamətli ola bilər. Tələbə

müəyyən təsirləri əks etdirə, yeni təhsil məzmununa əsaslanan bilik əldə etmək üçün məlumat toplaya bilər.

İnternet araşdırmaları tələbə marağına əsaslanmalıdır. Tələbənin bu və ya digər maraq dairəsi internet vasitəsilə  ehtiyaclarının ödənildiyi, şagirdin əhatə dairəsinin genişlənə bildiyi, öyrənmənin təkmilləşdirildiyi bir mühitin formalaşmasına səbəb olur.

İnternet bizə təlim prosesində mühüm məqsədə - tədrisin fərdiləşdirilməsinə, tələbələrin əvvəlki bilik və marağına uyğun olaraq ehtiyaclarının uyğunlaşdırılmasına imkan verir. Bu, hər bir tələbəyə öz qabiliyyətlərinə uyğun olaraq fərdi və müstəqil şəkildə öz inkişafında irəliləməyə imkan verir.

İnternetin təsir imkanlarını daha çox vurğulasaq, qarşılıqlı əlaqə yolu ilə yayılan şəxsi müstəqilliyə üstünlük verməyə imkan verən şəbəkə keyfiyyətini fərqləndirmiş olarıq. İnternetdəki bu qarşılıqlı əlaqə inteqrativ münasibətləri təşviq edəcək, biliklərin öyrənilməsinə marağı artıracaq.

Audio, video, mətn və təsvirin birləşmiş məlumatlarını bir formatda birləşdirən multimedia vasitələri qavrayış imkanlarını artırır. Multimedia xidmətləri üçölçülü obyektlərin təsvirini genişləndirə bilən, qarşılıqlı əlaqəyə və ikiistiqamətli rabitəyə imkan verən çoxsaylı məlumat elementlərini ehtiva edir. Bu cür xidmətlər, həmçinin, müsbət dəyişiklikləri artıra və tədris-təlim proseslərini maksimum dərəcədə təkmilləşdirə bilərlər. Didaktik resurslar kimi istifadə olunan texnoloji xidmətlər, bilik və kurrikulum mədəniyyətinin vasitələrindən sayılırlar.

İnternetin öyrənmə məqsədilə uyğun pedaqoji vasitə kimi nəzərdən keçirilməsi L.Viqotskinin "öyrənmə sosial hadisədir" nəzəriyyəsini dəstəkləyən prinsiplərə əsaslanır. L.Viqotskinin fikrincə, yeni biliklərin mənimsənilməsi dialoqda olan insanların qarşılıqlı münasibətindən asılıdır [33, s.50]. Buna görə də, öyrənmək, bir insanın fikirlərinin digərləri ilə ziddiyyət təşkil etdiyi və nəhayət razılığa gəldiyi dialektik bir prosesdir.

L.Viqotski koqnitiv kontekstləri və inkişafları sosial-mədəni transformasiyalarla bağlı olduğuna görə əlaqələndirir. İnternet yeni biliklər əldə etmək imkanlarını

genişləndirir. İnternet vasitəsilə insanların, ideyaların və mədəniyyətlərin cəmləşməsi L.Viqotskinin öyrənmə konsepsiyasına sosial təcrübə səviyyələrinin çoxqütblülüyünü və virtual olaraq müxtəlif mədəniyyətlərin insanlarını birləşdirir [33, s.50].

Tədris prosesi internetin sahib olduğu dialoq qurğusundan, kiberməkan və hipermətnlərdən asılıdır. Sadalananlar ideoloji təzadların, əlverişli dialektik proseslərin və debatların qurulmasına təkan verən universal şəbəkə vasitəsilə iyeni biliklərin əldə edilməsinə meyilli dialoqların qurulması üçün ən təsirli vasitələr hesab olunurlar.

İnternet tədris və öyrənmə prosesinin imkanlarını gücləndirir, çünki tədrisin funksiyalarından biri də tələbələrin mədəniyyəti dərk etməsinə şərait yaratmaqdır. Müasir texnologiya reallığın təşkili və kodlaşdırılmasının yeni formasını, tələbələrlə qarşılıqlı əlaqənin formalaşmasını nəzərdə tutur.

Beləliklə, qloballaşan, müasir dünyamızda internetin istər gündəlik həyatımızın müxtəlif sahələrində, istərsə də təhsildəki əhəmiyyəti danılmazdır. Tələbələrin biliklərinin artırılması məqsədilə dərslərdə müasir texnologiyalar, o cümlədən internetdən istifadə edilməsi olduqca mühümdür. Bunun üçün də, kompüter biliklərinə sahib olan, internet vasitəsilə işləməyi bacaran və texnoloji savada sahib müəllimlərin yetişdirilməsi lazımdır. Çünki internet təhsilə o zaman müsbət təsir göstərir ki, tələbə internetdə işləməyi, məlumatların axtarılması və seçilməsi bacarıqlarına sahib olsun. Bu bacarıqlar isə tələbələrdə müəllimlər, yaxud repetitorlar tərəfindən formalaşdırılır və inkişaf etdirilir.

## 1.2. Dilin tədrisində internetin rolu

Hal-hazırda ingilis dilinin təkcə gündəlik həyatda deyil, həm də xüsusi beynəlxalq təhsildə qlobal bir dil olduğu aydındır. Təhsildə internetin onlayn öyrənmə, kurs və xüsusi tədris materialları serverlərinin əsası kimi tətbiqi yenilik deyil. Üstəlik, beynəlxalq kompüter şəbəkəsi kimi internet çox əhəmiyyətli sayda öyrənmə resurslarına malikdir. D.Qrey qeyd edir ki, “ İnternet kompüterlərə qoşulan telefon xətləri ilə birləşdirilmiş məlumat şəbəkəsidir. Əslində, bu nəhəng qlobal rabitə

sistemini formalaşdırmaq üçün hazırda 100.000-dən çox müstəqil şəbəkə - dövlət və özəl şəbəkələr birləşdirilib. Bu, informasiya yoludur ” [26, s.43].

Mark Varşaver internet və təhsilin nisbətini belə müəyyən edir: “Bu gün internetdə mövcud olan məlumatların əhəmiyyətli sayı və miqdarı internetin özünün ixtiraçılarının təsəvvür və gözləntilərini üstələyib. Ən azı, təhsil prosesinin iki üstünlüyü var: müəllimlər üçün internet peşəkar inkişaf kimi, öyrənənlər üçün isə internet təlim resursları kimi” [58, s.34]. İndi belə güman etmək olar ki, internet informasiya super magistralı, rəqəmsal inqilab və məzmununun çoxunun ingilis dilində olduğu elektron kitabxanadır.

İstifadəçi bazasının çoxdilli olmasına baxmayaraq, bəlkə də mənşəyi ABŞ-da olduğuna görə, internet vasitəsilə ünsiyyətin çox hissəsi ingilis dilində aparılır. Tədqiqatçıların fikrincə, internet populyarlaşdıqca bu dəyişəcək, lakin hazırda ingilis dili ümumi qlobal dildir və ingilis dilinin beynəlxalq bir dil olması onun tədrisinin labüdlüyünü sübut edir.

Müasir informasiya əsrində təhsilin rolu sürətlə və kəskin şəkildə dəyişir. V.Selləriyə görə, “...təhsilin bu gün üzləşdiyi ən böyük problemlərdən biri daima əldə edilməli olan biliklərin həcmidir” [18, s.7]. Köhnə təhsil modeli, V.Sellərinin iddia etdiyi kimi, “20 il təhsil və 40 il iş” artıq bir insanın yaşaması üçün kifayət etmir [18, s.7]. Biliklərin sürətli toplanması insanları bütün həyatı boyu bir sıra bacarıq və peşələrə yiyələnməyə məcbur edir. Bu da o deməkdir ki, təhsilin əsas istiqaməti müəllimin öz biliklərini tələbələrə ötürməsindən tələbələrin zəruri biliklərin fəal axtarışına və onlara yiyələnməsinə keçməlidir. Beləliklə, V.Sellərinin arqumentindən belə çıxır ki, təhsilin rolu informasiya və kommunikasiya texnologiyalarından istifadə edərək yeni öyrənmə texnika və strategiyalarını formalaşdırmaq, öyrənənlərə məzmunla bağlı qərarlar verməklə müstəqil öyrənmələri üçün məsuliyyət almaq imkanı vermək, tələbənin müstəqilliyini inkişaf etdirmək, daha realist formalaşdırmaq. internetdən mənbə və başqaları ilə ünsiyyət vasitəsi kimi istifadə edərək öyrənmə mühiti yaratmaqdır.

İnternet hər zaman əlçatan və demək olar ki, bütün sahələri əhatə edən vasitə hesab olunur. Müasir tələbələr məktəbdə və ya məktəbdən kənarda dayanmadan internetdən istifadə edirlər. Buna görə də, bütün yaş qruplarının nəyin əsas ünsiyyət, cazibə vasitəsinə çevrildiyini və bunun təhsil mühitinə necə təsir etdiyini öyrənmələrinə açıq ehtiyac var.

Həll edilməli olan ilk məsələ, media və texnologiyanın inkişafı ilə qurulmuş bugünkü rəqəmsal aləmin tədqiqidir. İzləmək, eyni amillərə görə təhsilin nəyə çevrildiyini və onun həm tədris prosesinə, həm də onun iştirakçılarına, müəllim və tələbələrinə, hansı imkan və çatışmazlıqlara malik olmasının təsviridir.

Elektron təhsil, tədris prosesində elektron media informasiya və kommunikasiya texnologiyalarından istifadə edilməsidir. Elektron öyrənmə və ya elektron təhsildə demək olar ki, bütün təhsil texnologiyalarından istifadə oluna bilər. Elektron təhsil mətn, audio, təsvir animasiyası və videoları təqdim edən müxtəlif növ media ilə zənginləşdirilmişdir. Bu təhsil forması, həmçinin texnoloji proqram. audio, video lent kimi prosesləri də əhatə edir.

İkinci və ya xarici dil kimi ingilis dili bütün dünyada geniş şəkildə tədris edilsə də, ingilis dilini öyrənmək vasitəsi kimi internet o qədər də geniş istifadə olunmur. Dünya Bankının 2004-cü ildəki statistikası göstərdi ki, internetdən istifadə ölkənin maliyyə də asılıdır. Tədqiqat göstərdi ki, "...internet dil istifadəsini artırır və başqa bir dilin mənimsənilməsini asanlaşdırır" [31, s.611]. Digər tədqiqatçılar qeyd etdilər ki, "...internet dil öyrənənləri dildən real ünsiyyət vəziyyətlərində istifadə etməyə məcbur edir" [60, s.71].

Bir çox ölkələrdə, müəllim və valideynlərin internetin artan reallığını tam şəkildə qəbul etmələrindən asılı olmayaraq, internet bəşəriyyətin gələcəyinin ən etibarlı komponenti hesab olunur. İnternet, heç vaxt öz sürətini dəyişməyəcək, daima inkişaf edərək əhatə dairəsinin genişləndirəcək. Nə qədər ki, bu reallıq həyatımızda var, rəqəmsal savadlılıq kurikulum və məktəbdənkənar təhsildə aparıcı mövqeyə sahib olacaq. Getdikcə daha çox məlumatın elektron formada təqdim edilməsi ilə rəqəmsal

savadlılıq məktəbdə öyrədiləcək bir bacarıq kimi qalmayacaq, əksinə, həyat bacarıqlarından birinə çevriləcəkdir.

İnformasiya savadlılığı və ya rəqəmsal savadlılıq "müxtəlif mənbələrdən məlumat əldə etmək, qiymətləndirmək və istifadə etmək, məlumatın nə vaxt lazım olduğunu anlamaq və necə öyrənəcəyini bilmək bacarığı" kimi müəyyən edilir.

Onlayn məzmunun yarıdan çoxunun yalnız ingilis dilində olduğu (56%), bunun rəqəmsal biliklərlə yanaşı ingilis dili biliyinə ehtiyac duyduğunu, lakin bu ehtiyacların ödənilməsi üçün bir vasitə olduğunu etiraf etmək müdriklikdir. "İngilis dilinin xarici dil kimi tədris olunduğu sinifdə internetdən istifadə üçün ən güclü arqumentlərdən biri onun öyrənənləri orijinal dillə tanış etməsidir" [41, s.8].

Məktəbdən və onun texnologiyaya açıqlığından asılı olaraq müəllimlərin üzləşdiyi və gec-tez üzləşməli olacaqları yeni problem rəqəmsal savadlılıq və ondan ingilis dili dərsində məqsədyönlü istifadədir. Daha yavaş və ya daha sürətli şəkildə məktəblərdə internet və ya İKT-dən (informasiya və kommunikasiya texnologiyaları) istifadə artır. Müəllimlərə bu vasitələrdən kurrikulum məqsədlərində istifadə etmək üçün təzyiq olsa belə, bu, sadəcə mövcudluğu sayəsində texnologiyadan istifadə edən "texnoloji qətiyyətlilik"-dən qaynaqlanmamalı və ya nəticə verməməlidir. Ceyms E.Herrinqin hesab etdiyi kimi, tələbələrin informasiya və kommunikasiya texnologiyaları laboratoriyasında Google sözləri, anlayışları, hadisələri və başqa nələr olması kifayət deyil. Çarlz Stüart Universitetində (Avstraliya) Müəllimlər Kitabxanası üzrə mühaziraçi E. Herrinq bildirir ki, internet həm müəllimlər, həm də tələbələr üçün sadəcə əyləncə vasitəsi kimi qəbul edilərsə, biz onun potensialından öz xeyirimizə istifadə etmək fürsətini boşa vermiş olarıq [41, s.2].

Əgər İKT-nin rolu öyrənməni təkmilləşdirməkdirsə, o zaman müəllimlərin qarşısında duran məsələ İKT-ni onun mövcudluğuna görə tətbiq etmək deyil, həm də təhsil meyarlarına əsaslanmaq və daha çox müxtəlif öyrənmə üslublarını təmin etməkdir.

Müəllimin daha çox təcrübəyə malik olması, tədrisi prosesinin sistemli şəkildə yoxlanılması nəticəsində əldə etdiyi təkmilləşməni nəzərdə tutan peşəkar inkişaf təhsil müəssisələrinin tərkib hissəsi və tədris praktikasında yeniliklərin dəstəklənməsi üsuludur. Müəllimlərin peşəkar inkişafında informasiya kommunikasiya texnologiyalarından istifadə təhsilin bütün formalarına çıxış imkanlarının yaxşılaşdırılmasında mühüm rol oynaya bilər. İnternetdən istifadə müəllimlərin müstəqil peşəkar inkişafı üçün cəlb olunduğu qeyri-formal təhsil üçün vacibdir, bu termin "rəsmi təhsil şəraitindən kənarda internetdən istifadə" deməkdir. İKT-nin sinif təcrübəsinə və peşəkar inkişafa tam inteqrasiya etməsi üçün müəllimlər təkcə texniki bacarıqlara və pedaqoji biliklərə malik olmamalı, eyni zamanda çətinliklərlə üzləşdikləri məqamlarda yardım almalıdırlar. Lakin bu cür davamlı yardım ingilis dili müəllimləri üçün həmişə olmaya bilər. Nəticə etibarilə, tədris prosesində İKT-dən istifadə etməyə həvəsli olan müəllimlər özlərini idarə edən peşəkar inkişaf yolu ilə getməlidirlər. Belə bir mühitin danılmaz əhəmiyyəti bir sıra müəlliflər və tədqiqatçılar tərəfindən vurğulanmışdır, çünki bu tip peşəkar inkişaf müəllimlərə öz maraq sahələrinə əsaslanaraq müxtəlif öyrənmə sahələrində iştirak etmək şansı verir.

Xarici dilin tədrisi prosesində mövcud mühit, onun yaratdığı bütün imkanlar və problemlər nəzərə alınmalıdır. Yeni minilliyin əvvəlində xarici dillərin tədrisi zamanı informasiyanın, eləcə də ona geniş və qlobal çıxışı təmin edən texnologiyanın üstünlük təşkil edən rolunu nəzərdən qaçırılmamalıdır. Eynilə, həm sinxron, həm də asinxron xarakterli ünsiyyət vasitələrinin mövcudluğu müasir dil müəllimləri tərəfindən istifadə oluna biləcək maraqlı imkanlar yaradır. 20-ci əsrin sonlarında bir çox qərb ölkələrində böyük ölçüdə əldə edilmiş informasiya və kommunikasiya texnologiyalarının əksər tələbələrin gündəlik həyatına inteqrasiyası onların motivasiyasına müsbət təsir etməklə yanaşı, İKT proseslərinin və vasitələrinin sistematik şəkildə həyata keçirilməsini tələb edir. Beləliklə, internetin xarici dilin tədrisi və öyrənilməsi prosesinə necə təsir göstərə biləcəyi haqqında düşünmək müasir dil müəllimlərini əsas bilik və bacarıqlar toplusu ilə təchiz etmək üçün zəruri görünür[59, s.72].

20-ci əsrin başlanğıcı dil siniflərinin quruluşunda dramatik dəyişikliklərin səbəbi oldu. Bir tərəfdən, internet xidməti provayderinin kifayət qədər yüksək ödənişlərinin qismən azaldılması, təhsil müəssisələrində köhnəlmiş kompüter laboratoriyalarının yenilənməsi vasitəsilə internetlə bağlı ilkin problemlər dövlətin əhəmiyyətli köməyi ilə xeyli dərəcədə yaxşılaşdırılıb. Yerli hökumətin dəstəyi və telekommunikasiya bazarında rəqabətin artması, nəticədə məktəblərin əksəriyyəti kifayət qədər sürətli internet bağlantısı olan kompüter laboratoriyaları ilə təchiz edilmişdir. Beləliklə, 21-ci əsrin əvvəllərində internetə çıxış problemi hələ də qüvvədə olsa da, artıq bu, kompüter vasitəsilə dil tədrisinin faydalarından istifadə etmək üçün daha az maneə kimi görünür. Digər tərəfdən, milli təhsil islahatı və müəllimlərin ixtisasartırma prosedurları ilə stimullaşdırılan xarici dillərin tədrisində informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə sahəsində müəllimlərin peşəkar inkişafı üçün böyük təkan təmin edilmişdir və yerli müəllim hazırlığı təşəbbüsləri həyata keçirilmişdir. Ona görə də hazırda 1990-cı illərlə müqayisədə həm texniki mülahizələrə, həm də müəllim bacarıqlarına görə təhsildə kompüter texnologiyalarının tətbiqi üçün daha əlverişli şərait mövcuddur.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizdə ingilis dilinin tədrisinə xüsusi diqqət yetirilir; lakin nəticə hələ də gözləniləndən aşağıdır. İngilis dilinin tədrisini təmin edən digər mühüm amillərlə yanaşı, məqsədə nail olmaqda tədris texnologiyaları və tədris materialları mühüm rol oynayır. İngilis dilinin öyrədilməsi və öyrənilməsi prosesində dörd əsas sahə üzərində bilik və bacarıqlar formalaşdırılıb təkmilləşdirilir ki, bunlar oxu, eşidib-anlama, danışıq və yazıdır. İnternetdə bu bacarıqlar video konfrans, audio axın, onlayn real vaxt söhbətləri, poçt siyahısı, IP üzərindən səs, forum və vebsayt məzmunu və s. köməyilə təkmilləşdirilə bilər. Ümumilikdə, ingilis dilini öyrənmək və öyrətmək üçün ekspozisiyaların əksəriyyəti də internetdə mövcuddur.

Xarici dilin tədrisi ilə internet və informasiya kommunikasiya texnologiyalarının vəhdəti, bir çox dünya dövlətlərində məktəblərdə kompüterlər daha çox istifadə

olunmasına təşviq edir. Müxtəlif dövlət qurumları, təhsil müəssisələri, müəllim və valideynlər bu kompüterlərin şəbəkələşdirilməsini müdafiə edir və onların təhsilin bütün səviyyələrində istifadəsi üçün uzunmüddətli planlar hazırlayırlar. Daha sonra, müəllimlərin texnologiyadan yaradıcı şəkildə istifadə etməsində yeni tələblər qoyulur ki, bu da müvafiq poçt siyahılarının üzvlüyünün və müəllimlər üçün mövcud internet təlim kurslarının sayının kəskin artmasına gətirib çıxarır. Bununla belə, texnologiyanın hələ tam potensialından istifadə olunmayan bir çox tərkib hissələri, yəni audio və video komponentləri, texnologiyanın pedaqoji nəticələrinə dair əsaslı tədqiqatların real çatışmazlığı mövcuddur.

İngilis dilinin tədrisində internetdən istifadə edilməsi internet-əsaslı dil tədrisi adlanır. Hal-hazırda, internet əsaslı dil öyrənilməsi ingilis dilinin tədrisi və öyrənilməsi praktikasında ən innovativ sahədir. Tələbələrin cari mövzulara və ya fəaliyyətlərə maraq göstərməsi, məşğul olması sinifdə müəllimlər üçün gündəlik məsələdir. İnternet əsaslı dil öyrənmənin üstünlüklərindən biri müəllimlərə bu problemin öhdəsindən uğurla gəlməyə kömək etmək üçün yeni imkanlar təqdim etməsidir.

Son bir neçə ildə tədris prosesində internet-əsaslı dil tədrisindən istifadənin sayı xeyli artmışdır. Mövcud internet resurslarının tədris prosesinə uyğunluğu tam şəkildə müəyyənləşməsə də, ali və orta təhsil müəssisələrində kompüter və internet resurslarının istifadəsi texnologiya ilə xarici dilin tədrisi arasında əlaqələrin qurulduğu yeni informasiya dövrünə qədəm qoyduğumuzun və xarici dil kimi ingilis dilinin tədrisi ilə texnologiya arasındakı vəhdədin aydın işarəsidir. İnternetin inkişafı müəllimlərin nöqteyi-nəzərində təhsildə inqilab yaratdı, çünki internet vasitəsilə təklif olunan tədris vasitələri getdikcə daha etibarlı olur. Bu gün internet ingilis dilinin tədrisində xüsusi rol oynayır, getdikcə daha çox müəllim və öyrənən onu qəbul edir.

Xarici dil tədris olunarkən dil öyrənənlərin yaş qruplarını, onların saylarını nəzərə almaq lazımdır, çünki hər bir yaş qrupu digərlərindən malik olduğu xüsusiyyətlərə görə fərqlənir və şagird, tələbə sayı dərs prosesinə birbaşa təsir edir. Nizam-intizamı nəzarətdə saxlamaq cəhətdən, böyük siniflər müəllimlərə tədris

prosesində bir sıra problemlər yaradır. Xarici dil tədris edilən zaman böyük sinfi müxtəlif qruplara bölmək şagird və yaxud tələbələrin daha yaxşı idarə olunmasına səbəb ola bilər. Bir sinfi qruplara bölmək üçün aşağıdakı amilləri nəzərə almaq həyati əhəmiyyət kəsb edir: i) sinfin ölçüsü; ii) tələbələrin intellektual yetkinliyi; iii) tələbələrin motivasiyası; iv) kursun təlim məqsədləri; v) təlimatçının üstünlükləri; vi) texnologiyaların mövcudluğu [38, s.3]. İnternet-əsaslı dil təlimi tələbələri bir sıra müsbət xüsusiyyətlərlə təmin edir:

- İnternet-əsaslı dil tədrisi çərçivəsində tələbələr kompüterlərdə böyük məmnuniyyətlə işləyirlər, çünki dil, oyunlar, animasiya və problemlərin həlli yolları vasitəsilə müxtəlif və daha maraqlı, cəlbedici üsullarla verilir.
- Tələbələr intizamlı olurlar, çünki sinif daxilində və ya xaricində texnologiyadan istifadə dərsi daha maraqlı edir.
- Tələbələr özlərini güclü hiss edir, başqaları ilə əlaqə saxlamaqdan daha az qorxurlar və dil öyrənmə tapşırıqlarını daha effektiv yerinə yetirmək üçün bir komanda olaraq bütün potensiallarını həyata keçirirlər.
- Müəllim əvəzinə tələbələr sinifdə lider olurlar.
- Tələbələr bir çox mövzuda rəy alır və bundan faydalanırlar.
- Bəzi onlayn viktorinalar tələbələrin səhvlərini izah edir, bu da tələbələrin mövzunu daha tez başa düşməsinə səbəb olur.
- Tələbələr internetdən istifadə etmək üçün yüksək motivasiyaya malikdirlər, çünki onlar bunu əyləncə, oyunlar və ya hobbilərlə əlaqələndirə bilərlər.
- Şagirdlərin vaxt sərbəstliyi var, çünki onlar ya məktəbdə, ya da evlərində orijinal materialların müxtəlif resurslarından istifadə edə bilərlər. Onların dil öyrənmək üçün müəyyən bir vaxtda və ya yerdə olmalarına ehtiyac yoxdur.
- Tələbələr informasiyanı və yaxud məlumatı asanlıqla tapa, tədqiq edə bilərlər, çünki internet onlara minlərlə məlumat mənbəyi təqdim edir. İstənilən dilin müəyyən bir aspekti üçün çoxlu müxtəlif internet resursları tapmaq olar.
- Tələbələr daha çox ünsiyyətə girirlər [38, s.5].

İnternetin müsbət xüsusiyyətlərinə gəldikdə isə o, unikal məlumat və material mənbəyi olmaqla yanaşı, hər hansı bir məzmunun təqdim edilməsi üsulu, tələbə əməkdaşlığını təşviq etmək platforması hesab olunur. Bundan başqa, internet müxtəlif ölkələrdəki müəllimlər arasında da ünsiyyət və əlaqə yaradır. İnternetin müsbət xüsusiyyətləri siyahısına əlçatanlıq, çeviklik, əməkdaşlıq, genişləndirilmiş imkanlar, motivasiya və xüsusilə də müvafiq əyləncə daxildir. Siyahıya öyrənmə mülkiyyəti, məktəbdaxili və məktəbdən kənar ünsiyyət, interaktiv tədris və öyrənmə resursları, evdən öyrənmə imkanlarını da əlavə etmək olar.

Digər tərəfdən, ümumiyyətlə internetin mənfi xüsusiyyətlərinin, yəni çatışmazlıqlarının onun müsbət xüsusiyyətlərindən daha çox olduğu qeyd olunur, çünki internet insanlarda asılılıq yarada bilir. Düzdür, dərs prosesində internetdən istifadə internet asılılığına səbəb olmayaraq tədris prosesini təkmilləşdirir, lakin tələbələrin internetdən dərs prosesindən əlavə həddən artıq istifadəsi heç də yaxşı nəticələrlə sonlanmaya bilər. Motivasiya və nizam-intizam səviyyəsinin aşağı düşməsi, bilikləri bölüşmək üçün narahatlıq, rəqabət, müvafiq yazı bacarıqlarının itirilməsi, infrastruktura və avadanlıqlara balanssız giriş, tənqidi və qiymətləndirmə bacarıqlarının korroziyaya uğraması, sosial baxımdan özgəninkiləşdirmə , özünü təcrid və s. faktorları internetin həddən artıq istifadəsində yaranan çatışmazlıqlar kimi qeyd etmək olar.

Bununla belə, müəllimlərin qarşısında duran vəzifə "şagirdlərin təhsilini, bu təhsilə öz töhfələrini, öyrənmə və peşəkar inkişaflarını yaxşılaşdırmaq üçün internetin müxtəlif xüsusiyyətlərindən ən səmərəli şəkildə istifadə etməkdir" [57, s.90].

Jurnalist Cefri R.Yunq "*Sosial şəbəkələrin tədrisə necə kömək etdiyi (və bəzi professorları narahat edir)*" kitabında qeyd edir ki, bəzi professorların yeni texnologiyalardan hər hansı bir xüsusi öyrənmə məqsədilə deyil, sadəcə daha müasir göründüyü üçün istifadə edəcəkləri göstərilir. O şərh edir: "Texnologiya yaxşı qulluqçu və pis ağadır; tədrisdə mükəmməlliyin əvəzi yoxdur. Bir tərəfdə hələ də tələbənin gəlib ekrana bu şəkli və ya videonu necə çıxaracağını göstərməli olan və e-poçtdan istifadə etməyən professorlar var; digər tərəfdən, həqiqətən yalnız texnologiyanı görən və iş

vaxtının çoxunu onunla məşğul olmağa sərf etməyə hazır olan professorlar. Elə professorlar da var ki, həqiqətən də hər hansı bir texnologiya onların tədris prosesində qarşıya qoyduğu məqsədləri təkmilləşdirib və səmərəliliyi artırıb" [62, s.19].

Beləliklə, müasirləşmiş texnoloji dünyaya keçid davam edir və biz istəsək də, istəməsək də internet bizim və tələbələrimizin həyatına getdikcə daha çox daxil olur. Araşdırmalar sübut etdi ki, texnologiya və internet akademik nailiyyətlərə kömək edir. Ancaq texnologiya ilə əlaqəli hər bir amilin bəzi məhdudiyyətləri var ki, bunlara səthilik və ya asılılıq riskləri də əlavə edilməlidir. İKT-dən istifadə etməklə tədrisin özünəməxsus üstünlükləri və çatışmazlıqları var və hansının daha çox olması ilə bağlı hələ çox mübahisə etmək olar, lakin sonda onları ölçmək və onların təhsilə müsbət və ya mənfi təsir edib-etmədiyini yoxlamaq müəllimdən asılıdır.

Nəticə olaraq, müəllim texnologiyanın yalnız bir vasitə olduğunu və riskləri hesablayarkən onun öz və tələbələrinin xeyrinə necə istifadə oluna biləcəyini dərk etməlidir. Nəhayət, texnologiya birbaşa insanlarla əlaqəli bir anlayış olduğundan və onun ən güclü aləti hesab edildiyindən, yazıçı, pedaqoq və filosof C.S.Lyuisin güc, güclər və insanlar haqqında dedikləri ilə yekunlaşmaq doğru olardı: "İnsanın qazandığı hər yeni güc insan üzərində gücdür. Hər irəliləyiş onu daha da zəiflətdiyi kimi daha güclü edir. O, hər qələbədə qalib gələn general olmaqla yanaşı, həm də zəfər maşınının arxasınca gedən məhbusdur" [40, s.419].

Dissertasiya işinin bu yarımfəsilində apardığımız araşdırmalardan əldə etdiklərimizdən belə bir ümumi nəticəyə gəlirik ki, 20-ci əsrdən etibarən sürətlə inkişaf edən internet tədricən tədris prosesinə də inteqrasiya olunmağa başlandı. İnternet yalnız ünsiyyət vasitəsi deyil, həmçinin də mükəmməl tədqiqat mənbəyi, dünyanın hər yerindən ən son xəbərləri əldə etmək üçün əlverişli vasitə, istənilən zaman və yerdə təhsil almaq istəyən şəxslərə asinxron imkanı verən bir platformadır. İnternetdən tədris prosesində istifadə yalnız lazımi material və məlumatların əldə edilməsindən ibarət deyil, eyni zamanda fiziki məhdudiyyətli, yaxud tam iş saatı ilə çalışan və ya başqa bir ölkə/şəhərdən təhsil almaq arzusunda olan şagird və tələbələrin istəklərinin reallığa

çevrilməsidir. Təhsilin bu formasına distant təhsil, onlayn təhsil və ya internet-əsaslı təhsil də deyilir. İnternetdən istifadənin bir çox üstünlükləri olsa da, bu xüsusiyyətlər düzgün dəyərləndirilmədiyi zaman uğursuzluğa da gətirib çıxara bilər. Odur ki, interneti tədris prosesində tətbiq etməzdən əvvəl müəllimlər ondan istifadəni öyrənib təkmilləşdirməli, daha sonra tələbələrinə internetdən düzgün şəkildə yararlanmağı öyrətməlidir ki, internetdən istifadə yalnız bu halda dərsin keyfiyyətini və səmərəliliyini yüksəldə bilər.

## Fəsil 2. Xarici dilin tədrisində sosial şəbəkələrin istifadəsi metodikası

### 2.1. Sosial şəbəkələrin əsas xüsusiyyətləri və onların dil tədrisində istifadəsi

İnsanların gündəlik həyatında informasiya kommunikasiya texnologiyalarından və veb əsaslı tətbiqlərdən istifadəsi sosial şəbəkələrin yaranmasına səbəb olur. Ümumiyyətlə, şəbəkə bir sıra qovşaqlardan və qovşaqlar arasında müəyyən rabitəni təmsil edən əlaqələr dəstindən ibarətdir [46, s.479]. Sosial şəbəkələrdəki qovşaqlar ən çox fərd, təşkilat və ya cəmiyyətlərdir və qurulan rabitələr çox vaxt qovşaqlar arasında xüsusi əlaqə növü kimi əməkdaşlığı təmsil edir. MySpace və Facebook bu yeni texnologiya yanaşmalarının bəzi nümunələridir və hər biri 250 milyondan çox qeydiyyatdan keçmiş istifadəçisi olduğunu iddia edir [53, s.29]. LinkedIn-in sosial şəbəkə saytı kimi böyüməsi profil məlumatlarının təsirini çox yaxşı nümayiş etdirir. Onun məqsədi insanlara peşəkar şəbəkələr qurmaq və karyera inkişafı imkanlarını tapmaqda kömək etməkdir. LinkedIn-dən istifadə işəgötürənlərə potensial işçiləri axtarmaq üçün istifadəçilərin profil məlumatlarına baxmağa, işçilərə isə potensial işəgötürənləri axtarmağa kömək edir [12, s.3].

Hal-hazırda müxtəlif texnoloji imkanlara malik, geniş maraq və təcrübələri dəstəkləyən yüzlərlə sosial şəbəkə saytları mövcuddur. Onların əsas texnoloji xüsusiyyətləri kifayət qədər ardıcıl olsa da, sosial şəbəkə saytları ətrafında yaranan mədəniyyətlər müxtəlifdir. Əksər saytlar əvvəllər mövcud olan sosial şəbəkələrin saxlanmasını dəstəkləyir, lakin digərləri ortaq maraq, siyasi baxış və ya fəaliyyətlər əsasında kənar şəxslərə əlaqə yaratmağa kömək edir. Bəzi saytlar müxtəlif auditoriyaları əhatə edir, digərləri isə ümumi dilə və ya paylaşılan irqi, dini və ya milli mənsubiyyətə əsaslanan insanları cəlb edir. Saytlar həmçinin mobil qoşulma, bloq yazmaq və foto/video paylaşma kimi yeni məlumat və kommunikasiya vasitələrini müəyyən dərəcədə birləşdirir [21, s.17].

Mövcud olan minlərlə sosial veb saytlar təqdim etdikləri xüsusiyyətlərin təfərrüatları və tərtibatları ilə fərqlənir. Bununla yanaşı, onlar yeni funksiyalar əlavə və mövcud funksiyalara dəyişikliklər etməyə davam edirlər. Qeyd edək ki, bütün sosial

veb saytları eyni xüsusiyyətləri dəstəkləsələr də, bunları müxtəlif yol və incəliklərlə əks etdirirlər.

Sosial şəbəkələr biliyə münasibətimizi dəyişir. Akademiklər və tədqiqatçılar qlobal öyrənmə mühitində bilikləri bölüşmək və başqaları ilə əməkdaşlıq etmək üsulu kimi veb 2.0 texnologiyalarının rolunu vurğulayırlar. Həqiqətən də, sosial şəbəkələr vasitəsilə təhsildə istifadə olunan mənbə, resurs və ya materialların çoxu onlayn olaraq asanlıqla əldə edilə bilər. Təhsilin yeni rəqəmsal forması öz əhatə dairəsini genişləndirdikcə, onları qiymətləndirmək və akademik işin məqbul formalarının tanınması üçün yeni bir vasitəyə ehtiyac duyulur. İnterneti biliklərin yaradıldığı və paylaşıldığı bir tədqiqat şəbəkəsi hesab etmək olar. Veb 2.0 texnologiyası tədris prosesində konstruktivist yanaşmanı dəstəkləyir, bu yanaşmaya uyğun olaraq tələbələr bilikləri əldə etmək əvəzini onları kəşf edir, formalaşdırırlar. Müəllim və pedaqoqlar öz tədris metodologiyalarında bu yeni yanaşmanı mənimsəməli, biliklərin mübadilə edilməsindən çox təhsildə yaradıcılılığın formalaşmasına nail olmalıdırlar. Tələbələrə xarici dil öyrənmələrinə nəzarət etmək səlahiyyətinin verilməsi müəllimin rolunu təlimatçıdan iştirakçıya çevirir. Belə bir prosesin səmərəli təşkil olunmasl üçün, müəyyən struktura riayət olunmalı, müstəqil öyrənmə, biliklərin mənimsənilməsi və yaradıcılıq arasında tarazlıq qurulmalıdır.

· Şəxsi Profil

Əksər sosial veb saytların üzvləri şəxsi profillər, yəni ana səhifələr yaradır və idarə edir. Lakin onlar daxil edilən məlumat növlərinə görə fərqlənirlər. Bəzi saytlarda kimin (məsələn, hər kəs, yalnız dostlar) şəxsi profillərində hansı növ məlumatlara daxil ola biləcəyinə nəzarət etmək üçün üzvlərin məxfilik parametrləri müəyyən edilir. Sosial şəbəkələrdəki şəxsi profillər əvvəllər sosial media saytlarında olanlardan daha mürəkkəb idi. Bununla belə, sosial media saytları şəxsi profili daha mükəmməl hala gətirdiyi üçün bu fərq bulanıqlaşır [61, s.215].

Şəxsi profillərdə sosial şəbəkə istifadəçiləri öyrəndikləri xarici dillər haqqında qrammatik qaydalar, gündəlik, eləcə də akademik yazılarda istifadəyə yararlı maraqlı

ifadələr, frazeologizmlər, idiomlar, atalar sözləri və ya adi sözlər paylaşaraq öz izləyicilərinə dil öyrənməkdə köməklik göstərə bilərlər. Eyni zamanda, xarici dildə maraqlı yazı və ya hekayələrdən hissələr paylaşaraq da öz izləyicilərinə yardımçı ola bilərlər. Yaxud burada müəllimlər müəyyən teslər və onların izahlarını paylaşaraq onu izləyən şagirdlərini məlumatlandıra bilər

· Onlayn Əlaqələrlə Ünsiyyət

Mesaj ötürmə sistemi hər bir elektron icmanın müsbət xüsusiyyətlərindən biridir. Bu imkandan istifadə edərək, eyni sosial şəbəkənin üzvləri (həmçinin fərqli olanlar) bir-birlərinə mesaj göndərə və bildiriş e-poçtları ilə xəbər əldə edə bilərlər.

Sosial şəbəkələr istifadəçilərin onlayn əlaqələri, yəni dostları və digər ailə üzvləri ilə ünsiyyət qurması məqsədilə müxtəlif imkanlar təqdim edir. Bunlara e-poçt, ani mesajlaşma, mətn mesajlaşması, ictimai və şəxsi bülleten lövhələri və hətta İnternet telefon xidmətləri daxildir. MySpace və Facebook kimi saytlar öz üzvlərinə Skype kimi internet telefon xidmətlərinin mesajlaşma və telefon danışıqları imkanlarından istifadə etmək imkanı təqdim edir. Bundan əlavə, istifadəçilər adından saytlar üzvlərin dostlarına, eləcə də qrup üzvlərinə e-poçt və ya mətn mesajları vasitəsilə bildirişlər (məsələn, dostluq sorğusu bildirişi, qrupun statusu və fəaliyyəti ilə bağlı bildirişlər) göndərir. Bəzi saytlar e-poçt və ya mətn mesajı göndərməzdən əvvəl üzvdən "Kompüterləri və İnsanları Ayrı Demək üçün Tamamilə Avtomatlaşdırılmış İctimai Turinq Testi" (Completely Automated Public Turing Test to tell Computers and Humans Apart) kodunu yoxlamağı tələb edərək spamın qarşısını almağa çalışır.

Məsələn, Twitter istifadəçilərə onların üzv olmaları barəsində dostlarına mesaj göndərmək imkanı verir. 140 simvolla məhdudlaşdırılan mesaj dostların mobil cihazlarına və Twitter hesablarına göndərilə bilər. Üzvün bir və ya daha çox "izləyicisi" və bir çox istifadəçinin yalnız bir üzvü "izləyən" ola bilər. Facebook, bütün dostların görüb cavab verməsi üçün üzvün mesajını göndərmək funksiyası daşıyan mini bülleten lövhəsi ilə ("divar" adlanır) təmin edir. LinkedIn, istifadəçilərə digər üzvlər tərəfindən

göndərilən suallara cavab vermək və sualları onlayn şəkildə yönləndirmək üçün "cavablar" funksiyasını təmin edir.

Beləliklə, sosial şəbəkələrdə dil öyrənənlər üçün ən faydalı xüsusiyyətlərdən birinin mesaj göndərmək olduğunu desək yanılmarıq. Bu xüsusiyyətdən istifadə dil öyrənənlərin hədəf dildə yazı bacarıqlarını inkişaf etdirəcək, eyni zamanda doğma dil daşıyıcıları ilə ünsiyyət qurarlarsa o dil daşıyıcılarının istifadə etdikləri cümlə strukturlarını zamanla mənimsəyərək dil biliklərini daha da inkişaf etdirə biləcəklər. Eyni zamanda, bəzi sosial şəbəkələrdə istifadə edilən simvol sayı məhdud olduğundan dil öyrənənlər xarici dildə öz fikirlərini lakonik ifadə etməyi də öyrənəcəklər.

· Şəxsi Hesab Lövhəsi

Profil idarəetmə paneli vasitəsilə şəxsi hesab lövhəsinə daxil olmaq hər bir sosial şəbəkənin əsas xüsusiyyətlərindən biridir. Hər bir üzv öz profilində elan etmək istədiyi gündəlik hadisələri təqdim edə bilər.

Məsələn, Twitter ilk növbədə qısa mətn mesajlarının paylaşılmasına icazə verir. İstifadəçi tərəfindən yaradılan yeganə qeyri-mətn məzmunu üzvün iki şəklinin yerləşdirilməsinə icazə verir: bir baş, çiyin və fon şəkli. Üzv seçilmiş ("sevimli") mətn mesajlarına olan keçidləri öz qovluğunda saxlaya bilər. MySpace bloq, şəkil, video, musiqi məzmununun pleylistlərini və s. paylaşmağa imkan verir. Youtube istifadəçi tətəfindən yaradılmış video bloqlar, qısa orijinal video və kliplərin yerləşdirilməsini və baxılmasını dəstəkləyir. Üzvlər video yerləşdirərkən başlıq və etiketlər əlavə edə bilərlər. YouTube videoların açar sözə əsaslanan axtarışını dəstəkləmək üçün axtarış sisteminə başlıq və etiket əlavə etmək imkanı yaradır.

Şəxsi hesab lövhələrinin olması axtarış zamanı lazımi materialların daha tez seçilməsinə kömək edir. Beləliklə, tələbə və ya müəllim sosial veb saytlarda məlumat axtararkən mövzu ilə bağlı axtarış sətrinə yazır, sosial şəbəkələr isə istifadəçilərə mövzu və ya onun yaxın əhatə dairəsi ilə bağlı tapılan nəticələri təqdim edir.

· Düşüncə otağı

Əksər sosial şəbəkələr üzvlərə istifadəçi tərəfindən yaradılmış məzmuna dair şərhlərə buraxmağa imkan verir. Bəzi saytlar üzvlərə də onlara səs verməyə icazə verir. Səsvermə sıralama (məsələn, 5 ulduzdan 3 ulduzun yoxlanılması) və ya istifadəçi tərəfindən yaradılmış məzmunun "sevimli" kimi qeyd edilməsi və ya onu spam və ya uyğunsuz kimi qeyd etmək şəklində ola bilər. Bəzi saytlar bütün şərhləri düz siyahı şəklində təqdim etdikləri halda, digərləri isə şərhləri 2 səviyyəli iyerarxiya kimi təşkil edir, yəni müvafiq şərhə rəy vermək imkanı yaradırlar. Eləcə də, bir çox veb saytlar şərhləri göstərmək üçün əlavə çeşidləmə variantları təqdim edir, məsələn, şərhlərin sayı, istifadəçi tərəfindən yaradılmış məzmunu göndərən e-poçtların sayı, alınan müsbət səslərin sayı və s.

Bu xüsusiyyət də xarici dil öyrənənlər üçün olduqca mühümdür. Xarici dil öyrənənlər sosial şəbəkədə oxuduqlarına, dinlədiklərinə və ya izlədiklərinə şərhlər əlavə edərkən onların yazı bacarıqları, həmçinin geniş həcmli məlumatların qısa şərhini verməyi öyrənirlər. Eyni zamanda, burada digər şərh yazanların qeydlərini oxuyaraq da dil biliklərini inkişaf etdirə bilərlər.

· E- Xəbər bülleteni

İstifadəçilər nəyisə yerinə yetirmək və ya müəyyən bir suala cavab tapmaq üçün vebsaytlara nəzər salmağa meyllidirlər. Xəbər bülletenlərinin əsas sosial tərəfi istifadəçilərin onları tez-tez həmkarlarına və dostlarına yönləndirməsi hesab olunur.

Bu emosional əlaqənin müsbət cəhəti ondan ibarətdir ki, xəbər bülletenləri istifadəçilər və şirkət arasında bağ yarada bilər. Bülletenin əsas mənfi xüsusiyyəti ondan ibarətdir ki, xəbər bülleteninin istifadəsində yaranan problemlər istifadiçələrlə mövcud münasibətlərə birbaşa təsir göstərir. [66, s.85].

Irexpert layihəsində ən yaxşı təcrübə olaraq biz bu faktı aşkar edirik ki, istifadəçilər sosial şəbəkə profillərini çox müntəzəm yoxlamır, lakin onların əksəriyyəti poçt qutusunu yoxlayır. Beləliklə, biz onlara istifadəçi dostu bülleteni göndərməklə onları sosial şəbəkəmizə baxmağa təşviq edə bilərik.

Bu bülleten hər bir üzvün müvafiq administratoru təsdiqlədikdən sonra sosial şəbəkələrdə təqdim edə biləcəyi gündəlik xəbərlərdən ibarətdir. Veb əsaslı agent gündəlik xəbərləri toplaya, əvvəlcədən hazırlanmış xəbər bülleteni yarada və sonra onu müvafiq alıcılara göndərə bilər.

· Dostluq Şəbəkəsi

Sosial şəbəkələr istifadəçilərin onlayn əlaqələri, yəni dostları və digər ailə üzvləri ilə ünsiyyət qurması məqsədilə müxtəlif imkanlar təqdim edir. Bunlara e-poçt, ani mesajlaşma, mətn mesajlaşması, ictimai və şəxsi bülleten lövhələri və hətta internet telefon xidmətləri daxildir.

Hər bir üzv başqalarını dostluq əlaqələri qurmağa və öz və ya dostlarının şəbəkəsini inkişaf etdirməyə dəvət edə bilər. Bu qabiliyyət üzvləri vaxtaşırı profillərini yoxlamağa sövq edir.

· Forumlar

Bir çox sosial şəbəkələr az sayda standart qrupları dəstəkləyir və onlardan birinə və ya bir neçəsinə yeni üzvlər təyin edir. Onlar həmçinin üzvlərə açıq şəkildə yeni qruplar yaratmağa və ya onlara qoşulmağa imkan verir. Açıq qrupa menecer təyin olunur. Üzvlər və üzv olmayanlar bütün qruplarda istifadəçi tərəfindən yaradılmış istənilən məzmuna baxa bilərlər. Bununla belə, yalnız üzvlər istifadəçi tərəfindən yaradılmış məzmunu yerləşdirə bilər.

İnternet forumu bir çox insana öz təcrübələri, məlumatları, məsləhətləri, strategiyaları və s. haqqında danışmağa imkan verir. İstənilən problem forumlar vasitəsilə araşdırıla və bu və ya digər problem, onun həlli yolları haqqında danışan bir və ya bir neçə şəxsi tapıla bilər. Forum birdən çox istifadəçi arasında, ümumiyyətlə mətn tipli ünsiyyət, bəzən səs vasitəsilə qurulan onlayn ünsiyyət formasıdır. İnternet forumları qonşuluq bülletenləri lövhəsindən kənar şəkildə formalaşdırılır. İnternet forumlarına daxil olaraq istənilən elan və lazımi məlumatları yerləşdirmək və ya müxtəlif mövzular haqqında məlumat tapmaq mümkündür. İnternet inkişaf etdikcə, insanların xüsusi forumları, bülleten lövhəsi kimi veb saytları tapması prosesi çox

asanlaşdı. Craigslist kimi məşhur olan forumlardan bəziləri sizə istədiyiniz hər məlumatı tapmaq, əşyalar satmaq və ya almaq, insanları işə götürmək, iş tapmaq, otaq yoldaşı tapmaq və s. kimi imkan verir. Bu, internet yazışmaları və ünsiyyət üçün nəzərdə tutulmuş virtual məkandır. Forumlar birdən çox istifadəçinin nədənsə necə istifadə etdikləri və ya gündəlik təcrübələrində tapdıqları barədə öz məsləhətlərini, məlumatlarını bölüşmək üsulu və hər bir əsas istifadəçi tərəfindən müəyyən mövzular haqqında məlumat toplamaq yolu hesab oluna bilər [49, s.47].

Forumlar açıq, sərbəst müzakirələrə və tez-tez de-fakto standartlarına üstünlük verir. Forumlarda ən çox yayılmış mövzulara suallar, müqayisələr və rəy sorğuları, habelə debatlar daxildir. Dəyişkən və təsadüfi davranışları səbəbindən insanlar əsəbləşdikcə cəfəmgiyyat və ya qeyri-sosial davranışlar nümayiş etdirə bilərlər. Arqumentasiya nəzəriyyəsinin zəif başa düşülməsi və iştirakçıların dəyərlərindəki fərqlər forumların ümumi problemidir. Mövzuya cavablar tez-tez kiminsə nöqteyi-nəzərinə əsaslanan ifadələr olduğundan, insanlar bir-birinin etibarlılığını və mənbələrini şübhə altına aldıqca müzakirə adətən bir neçə istiqamətə gedə bilir.

Texnologiyanın inkişafı ilə ikinci və xarici dilin öyrənilmə prosesində informasiya kommunikasiya texnologiyalarının zəruriliyi aşkar edilmişdir . R.Bleyk qeyd etdi ki, "texnologiya tələbələrin geniş çeşidli orijinal materiallarla əlaqəsini elektron şəkildə artırmaqla ikinci dilin mənimsənilməsində mühüm rol oynaya bilər" [13, s.210]. Sosial şəbəkələr başqa ölkələrdən olan insanlarla ünsiyyət qurmaq istəyən tələbələrin dili asanlıqla öyrənmək üçün yaradılmış sosial mühit növləridir.

Texnologiya çevik funksiyaların seçimlərini təmin etdiyi üçün öyrənmə mühitini dəyişir. Məsələn, internet tələbələrə, müəllimlərə, idarəçilərə vəzifələrini yerinə yetirmək və istədikləri vaxt və yerdə işləmək üçün bir çox imkanlar təqdim edir [25, s.4]. Sosial media platformaları akademik işləri, tədqiqat nəticələrini, kitab icmallarını paylaşmaq, həmyaşıdları və müəllimləri ilə ünsiyyət qurmaq üçün hər kəs tərəfindən akademik qurumlarda istifadə olunan ümumi alətlərə çevrilir. D.Tapskot və A.Vilyam bildirirlər ki, "yeni nəsil öyrənənlər passiv istehlakçılar olmaqla kifayətlənmir və

məhsulları özləri dizayn, istehsal və yaymaqla seçim, rahatlıq, fərdiləşdirmə və nəzarət istəklərini artırırlar" [54, s.38].

Bloq və viki kimi xarici veb proqramları tələbələri söhbətə cəlb edir, onların təcrübələrini və biliklərini başqa insanlarla bölüşməsinə həvəsləndirən kommunikativ mühit yaradırlar. Son tədqiqatlar, müəllimləri dil öyrənmə prosesi üçün uyğun hesab olunan rəqəmsal vasitələrlə təmin edən veb-əsaslı tətbiqlərlə tədris üzərində davamlı düşünməyə ehtiyac olduğunu bildirir. Xarici dil kimi ingilis dilində veb-əsaslı tətbiqlərdən istifadə müəllimlərin yanaşmalarında və ingilis dili dərsində istifadə etdikləri metodologiyada əsaslı dəyişikliklərlə nəticələnir. Bəzi müəllimlər xarici dil dərslərində tələbələrin motivasiyasını və qarşılıqlı əlaqəni təkmilləşdirmək üçün müasir texnologiyadan istifadə edirlər, lakin yenə də ənənəvi tədris rejiminə sadiq qalan çoxlu müəllimlər var. Bu səbəbdən sosial platformaların tətbiqi təhsil sisteminə inteqrasiya olmuş və tədris təcrübəsində öz dəyərini üzə çıxarmışdır.

M.Pur "Sinifdə Sosial Mediadan İstifadə" adlı kitabında bloqun tərifi, qurulması prosesi və müsbət xüsusiyyətləri kimi müxtəlif aspektləri, həmçinin sinif fəaliyyəti üçün ideyaları qeyd edir [45, s.69]. Bloq istifadəçilərə müxtəlif mövzuda jurnal və məqalələr üçün xüsusiyyətlər təqdim edən virtual yazı paylaşma platformasıdır. İngilis dilininin tədrisi prosesində bloq yaratmaq üçün istifadəçi ümumi bloq qaynaqlarını seçə bilər:

- Blogger.com. istifadəçilərin ehtiyaclarını dəstəkləməyi asanlaşdıran funksional alətlərə malikdir. Əgər istifadəçinin Gmail-i varsa, o, blogger.com veb saytına daxil ola bilər.
- Tumblr.com. gənc tələbələrin istifadə edə biləcəyi əlverişli vasitə hesab olunur, çünki çox sadə struktura malikdir. Məsələn, veb saytın şərh yazmaq xüsusiyyəti və etiket bulud xidməti yoxdur. Bu veb sayt heç bir bloq təcrübəsi olmayan tələbələr üçün ən məqbul seçim və onlara bloq fəaliyyətinə başlamaqda istifadə etmək üçün yaxşı bir nümunədir.

- Wordpress.com. çox inkişaf etmiş bloq vasitəsidir və bloq yazmaqda yüksək effektivliyə malik təcrübəli tələbələr üçün ideal vasitədir.
- Kidblog.orgis Wordpress-ə əsaslanan xidmətə bənzəsə də, o, tələbələr üçün onların məxfiliyini qoruyan təhlükəsiz mühit yaratmaq məqsədilə istifadə olunur. Bu veb sayt vasitəsilə müəllimlər tələbələrin e-poçt ünvanından istifadə etmədən sinif bloqu qura bilərlər.

Müəllim, tədris prosesində xüsusi bloqdan istifadə etmək qərarına gəldikdə, o, istifadəçi hesabı yaratmalıdır. Sonra o, iki bölmədən ibarət bloq yarada bilər. Birinci hissə ictimaiyyət üçün nəzərdə tutulmuş "Ön səhifə"dir, ona görə də ziyarətçilər bu səhifəyə daxil ola bilərlər. İkinci hissə "İdarəetmə Paneli"dir, burada bloq sahibi bloqda istədiyini yazıb dərc edə bilər. Tələbələrlə bloqdan istifadə etmək üçün bir çox təkliflər var:

- ✓ Müəllim istənilən bloq xidmətində hesab yarada və sinif bloqunu dərc edə bilər.
- ✓ Bütün tələbələr sinif bloqunda "Müəllif" kimi qəbul edilir.
- ✓ Müəllim tələbələrdən müvafiq məzmunu başa düşdüklərini göstərən sinif mövzularına aid yazılar yazmağı xahiş edir.
- ✓ Müəllim suallar göndərə və tələbədən cavablarını yazmağı xahiş edə bilər.
- ✓ Müəllim hər bir şagirddən konkret bir mövzu haqqında yazmağı və sonra o, digər tələbələrdən sinif yoldaşlarının yazılarına şərh vermələrini xahiş edə bilər.
- ✓ Müəllim bloqdan sinif elanlarını, ev tapşırıqlarının təfərrüatlarını və tələbələrin işləri ilə bağlı rəyləri dərc etmək üçün idarəetmə vasitəsi kimi istifadə edə bilər.

Vikikitablar birgə yazı üçün virtual məkan yaratmağı qarşısına məqsəd qoyan yazı mediası layihəsidir. Hər kəsin redaktə etmək üçün istifadə edə biləcəyi açıq məzmunlu dərsliklərdir. "Vikidərsliklər dərslik konsepsiyasında əsaslı dəyişikliyi qeyd edən dərsliyi inkişaf etdirmək və yaymaq üçün viki texnologiyasından istifadə etməklə yazılmış dərsliklərdir. Vikidərslik dərsliyin, elektron kitabın və vikinin atributlarını özündə birləşdirir. Bu hibrid konstruksiyalar e-kitabların və vikilərin verdiyi

üstünlüklərdən istifadə edərsə və dərsliklərin bəzi məhdudiyyətlərini təkmilləşdirərsə uğur qazanacaqdır" [47, s.8].

M.Pur öz kitabında sinifdə vikidən istifadə ilə bağlı bir çox üsul təklif edir:

- Müəllimlər vikidən tələbələr üçün bələdçi sənəd kimi istifadə edə bilərlər. Müəllimlər vikidə kurs proqramı, tapşırıqlar və tədris təlimatını keçə bilər.
- Müəllim tələbələrdən qrup şəklində işləməyi və müəyyən mövzu ətrafında bir viki qurmağı xahiş edə bilər.
- Müəllimlər tələbələrin müzakirə bacarıqlarını artırmaq üçün tələbələrdən viki müzakirə forumundan istifadə etməyi xahiş edə bilərlər.
- Müəllimlər tələbələrdən Vikipediyada yeni buraxılış haqqında məqalə yazmağı xahiş edə bilərlər.
- Müəllimlər tələbələrə tez-tez verilən suallar və ya lüğətlər şəklində müəyyən mövzu haqqında məlumat mənbəyi tərtib edə bilərlər.
- Müəllimlər tələbələrə zəncirvari hekayələr yaratmağı tapşırmaqla onların yaradıcılığını təkmilləşdirə bilərlər. Onlar, tələbələri cüt-cüt yerləşdirə və hər bir cütdən növbə ilə xəyali hekayələr yazmağı xahiş edə bilərlər [45, s.70].

İnternet dil öyrənmək üçün geniş beynəlxalq resursları təqdim edir. Bu, ikinci və xarici dil öyrənənlərə doğma dil daşıyıcıları ilə birbaşa ünsiyyət qurmağa imkan verir. Ünsiyyət qurmaq, özünü ifadə etmək və sosial qarşılıqlı əlaqə üçün şəxsiyyətlərarası münasibət yaratmaq üçün ən vacib elementdir. İnternet vasitəsilə reseptiv (eşidib-anlama və oxu) və produktiv (danışıq və yazı) dil bacarıqları inkişaf etdirilə bilər. A.Melmanın fikrincə, xarici dili öyrənənlər öz qabiliyyətlərini, özünü tanımalarını, özünə inamlarını və ömür boyu öyrənmələrini artıracaqlar [9, s.185]. Onlar, ingilis dilini öyrənməklə bağlı müsbət tendensiyalarını inkişaf etdirməyə imkan verən müxtəlif sosial mediadan istifadə etməklə öz həyat bacarıqlarını təkmilləşdirirlər.

Məşhur sosial şəbəkələrdən biri olan Facebook kimi veb-əsaslı qarşılıqlı fəaliyyət sahəsi dil öyrənənlərə mövcud məlumatdan istifadə etməyə kömək edir. Dil öyrənənlər istədikləri zaman müxtəlif insanlarla, ailə üzvləri, dost və hətta müəllimləri

ilə əlaqə saxlaya bilərlər. Xarici dili mənimsəyənlər müxtəlif növ bilikləri öyrənə və fərqli mədəniyyətlərin qanunları ilə tanış ola bilərlər. Dil və mədəniyyət bir-birindən asılıdır və xarici dil mədəniyyətini dərk etmək dili dərk etmək prosesini təkmilləşdirir. İnternetdə mövcud olan alət və resurslar qrup üzvləri üçün əlverişli sahələr təqdim etməklə dörd dil bacarığını inkişaf etdirməyin ən yaxşı yollarını təklif edir.

Özünəinamlı olmaq dil öyrənənlərin xarici dildən real istifadə etməklə ünsiyyət zamanı qazandıqları mühüm xüsusiyyətdir. Digər tərəfdən, kompüter texnologiyası öyrənənləri dil biliklərinin istifadəsinə və problemlərin həlli istiqamətinə təşviq edən faydalı modellərdir. Dil öyrənənlər yaşadığı mühit və əhatə dairəsi ilə məhdudlaşmaq əvəzinə dünyadakı həmyaşıdları ilə müxtəlif sosial şəbəkələr vasitəsilə ünsiyyət qura bilərlər. Beləliklə, kompüter texnologiyası sinifdən kənar tələbə-tələbə və tələbə-müəllim qarşılıqlı əlaqəsinin formalaşmasında da təsirli vasitə hesab olunur.

İngilis dilinin tədrisində İKT-nin inkişafının bir hissəsini multimedia və texnologiya təşkil edir. Multimediya və ya texnologiyadan istifadə dil siniflərinə müsbət təsir göstərir, daha çox məlumat və tədris materialı mənbələrilə təmin edir, tələbələrin öyrənmə motivasiyasını artırır və onların ünsiyyət bacarıqlarını qoruyur. İKT həm də tələbələrin düşüncə və praktiki dil bacarıqlarını (oxu, yazı, eşidib-anlama və danışıq) tam inkişaf etdirir və müəllimlərin səmərəli dərs keçməsinə kömək edir. S.D.Şiamli və M.Fil, dil tədrisində multimedia texnologiyasının zəruriliyini təhlil etmiş və xarici dilin tədrisində texnologiyanın istifadəsi ilə bağlı problemi ortaya qoymuşdurlar. Onlar, dil tədrisi texnologiyasının tələbələrin tədqiqata marağını inkişaf etdirmək, onların ünsiyyət qabiliyyətini inkişaf etdirmək, biliklərini genişləndirmək, qərb mədəniyyətini dərindən başa düşmək, tədris keyfiyyətini artırmaq, tələbə və müəllimlər arasında qarşılıqlı əlaqəni gücləndirmək, dil öyrətmək üçün kontekst yaratmaq qabiliyyətinə malik olduğu qənaətinə gəlirlər [51, s.33]. Bununla belə, multimeda texnologiyalarının istifadəsində bəzi problemlər hələ də mövcuddur. Məzmunun tədrisi zamanı texnologiya vasitə deyil, hədəf bilik halına gəlir. Texnologiya bəzən tələbələrin düşünmə potensialını məhdudlaşdırır və multimedia

texnologiyası əsas tədris materialı olaraq müəllim rolunu əvəz edə bilməz. Bundan əlavə, İKT ölkələr arasında birgə öyrənməni də təmin edir. Z.Anikina və başqaları qeyd edir ki, Amerika və Rusiya universitetlərinin tələbə kontingenti arasında ingilis dili dərslərində onlayn tele-əməkdaşlıq tələbələrin beynəlxalq ünsiyyət bacarıqlarının inkişaf etdirilməsinə, xarici dil öyrənmək həvəsinin artmasına, ingilis dili bacarıqlarının zənginləşdirilməsinə və tələbələrin mədəniyyətlərarası məlumatlılığının genişlənməsinə zəmin yaradır [10, s.156].

Sosial media doğma və digər xarici dil daşıyıcıları ilə müxtəlif məsələlər haqqında onlayn söhbət vasitəsilə nitqi inkişaf etdirir. C.Karmen və J.Hefner qeyd edirlər ki, sosial şəbəkələrdə xarici dil minimum streslə, daha sosial və zövqlü şəkildə onlayn texnologiyalardan istifadə edilərək tədris olunur. Onlar hesab edirlər ki, həqiqi öyrənmə sosial və tələbə mərkəzli olduqda baş verir. Başqa sözlə, bu cür öyrənmə "materialın və məzmunun daha mənalı başa düşülməsinə" gətirib çıxarır [17, s.29]. Bir sıra dilçilər sosial medianın xarici dil öyrənmə prosesində yeni olan elektron vasitə kimi əhəmiyyətini vurğulayırlar.

Alternativ olaraq, A.Kendel və M.Norzkot iddia edirlər ki, onlayn qruplardakı müzakirələr və onlayn məlumatların axtarışı dil öyrənən şəxslərə gizli şəkildə faydalı bacarıqları tədris etmək şansı verə bilər [32, s.47]. Həmçinin, onlayn tədris prosesində müzakirə və ünsiyyət zamanı daha çox fikir meydana çıxır. Tələbə sayının daha az olduğu kiçik qrupları müqayisə edərkən, tədqiqatçılar dil öyrənənlərin onlayn müzakirələrdə daha çox iştirak etdiyini aşkar etdilər. L.Li, tapşırıq əsasında təlimat verən, həm də dil öyrənənlə əlaqə və ünsiyyət bacarıqlarını artıran paralel elektron söhbət aparmışdır [39, s.16]. İnternet texnologiyası bütün xarici dil öyrənənlərə bərabər şans verir. M.Varşaver qeyd etdi ki, onlayn qarşılıqlı əlaqə dil öyrənənləri hədəf dildə tələffüz və ya şifahi əlaqə ilə maraqlanmadan daha interaktiv söhbətə həvəsləndirir [59, s.73]. Eynilə, M.H.Bovua sosial şəbəkələrin tələbələri fransızca dərslərində daha çox müzakirə aparmağa təşviq etdiyini bildirir [11, s.198].

Facebook müəllim və tələbələr arasında qarşılıqlı əlaqəni yaxşılaşdırmaq üçün faydalı hesab olunur. Bu sosial şəbəkə həm müəllim, həm də dil öyrənənlərin akademik fəaliyyətinə təsir göstərir. Facebook tələbələri ev tapşırıqlarını yerinə yetirməyə təşviq edir, xarici dillərin öyrənilməsini asanlaşdırır, dil bacarıqlarının öyrənilməsinə müsbət təsir göstərir, tələbələrin sosial davranışlarını yaxşılaşdırmağa kömək edir. B.Hamilton aşkar etmişdir ki, Facebook yeniyetmə oxucuları və naşirləri birləşdirmək və onlar arasında ədəbiyyat dairələrini artırmaq üçün uyğun mühit yarada bilər [23, s.14]. G.Blatner və M.Fiori vurğulayırlar ki, Facebook xarici dil öyrənənlər arasında rəqabəti inkişaf etdirə və onlara təsadüfi lüğətləri öyrənməyə kömək edə bilər [14, s.17].

Facebook-un öyrənmə vasitəsi kimi müsbət təsirlərindən bəhs edərkən, onun bəzi mənfi cəhətlərini də vurğulamaq lazımdır. Məsələn, bəzi universitet tələbələri universitet işçilərinin profillərinə daxil olmalarını məhdudlaşdıraraq tələbələrin virtual və ənənəvi ofis saatlarından istifadə etməsində ciddi fərq olmadığını bildirirlər. Digər tərəfdən, Facebook dil öyrənənlərin yazmaq üçün istifadə etdiyi bir proqram olsa da, bu, öyrənənlərin tədris prosesində yazdıqları akademik yazı ilə eyniyyət təşkil edə bilməz. Tələbələr ünsiyyət qurmaq üçün Facebook, bloq və Twitter-də qeyri-rəsmi mətn yazdıqları halda, məktəb və universitetlərdə isə onlar öz akademik yazı bacarıqlarını formalaşdırmaq və təkmilləşdirmək üçün mətn, məqalə və s. yazırlar.

Bəzi tədqiqatçılar Facebook-un təhsil mühitinə təsirlərini müzakirə ediblər. D.Şafhauzer müəyyən edir ki, Facebook və digər sosial şəbəkələr dil öyrənənlər arasında ünsiyyət məhdudiyyətini aradan qaldırır və onlara ünsiyyət üçün məlumatları araşdırmağa kömək edir [50, s.13]. Facebook sosial şəbəkəsindən tələbələrin təlim prosesində iştirakını artırmaq üçün etibarlı təlim mühiti kimi istifadə edilə bilər. Facebook sosial, elektron və ekoloji öyrənməyə xüsusi diqqət yetirir.

Tələbələrin Facebook kimi sosial şəbəkə mühitində ünsiyyət qurmaq üçün qeyri-rəsmi mətnlər yazması onların motivasiyalarına müsbət təsir göstərir. S.M.Kitsis ev tapşırıqlarını yerinə yetirərkən qarşılıqlı əlaqə yaratmaq üçün onlayn söhbətlərdə iştirak etməyi təklif etmişdir [35, s.30]. O iddia edir ki, müəllim və tələbələr bu kimi onlayn

söhbətlər vasitəsilə dərslərini səmərəli təşkil edirlər. Bunun əksinə olaraq, D.Fodman və M.Monro qeyd etmişdirlər ki, Facebook tələbələrin pis davranışlarını gücləndirə bilər və mənfi sosial təşviqə malikdir [9, s.181]. T.Janda e-poçt fəaliyyətlərinin ingilis dili öyrənənlərə yazı qabiliyyətini və hekayə, təsvir və şərh kimi bacarıqlarını artırmağa kömək edə biləcəyinə inansa da [26, s.44], J.Blox iddia edir ki, Facebook-un öyrənənlərin yazı qabiliyyətini necə yaxşılaşdırdığına dair çox az araşdırma mövcuddur [15, s.2].

Bir sıra tədqiqatlar göstərmişdir ki, sosial şəbəkələrdə ünsiyyət və əlaqələrin qurulmasında mədəni fərqlərin böyük rolu vardır. Facebook müxtəlif mədəniyyətlər arasında əlaqələri gücləndirmək və mədəni uçurumu aradan qaldırmaq üçün əlverişli mühitdir və gənclərə müxtəlif mədəniyyətlərdə ünsiyyət qurmaq imkanı verir. N.A.Mayls Facebook-u müxtəlif dillərin öyrənilməsində mühüm rol oynayan faydalı vasitə kimi göstərir [44, s.13]. Facebook vasitəsilə sinif tapşırıqlarının dəstəklənməsi ilə bağlı bəzi araşdırmalarda M.D.Roblyer, M.Veb və J.V.Vitti aşkar etmişlər ki, universitet tələbələri öz sinif fəaliyyətlərini dəstəkləmək üçün Facebook və oxşar sosial şəbəkələrdən istifadə edə bilərlər [48, s.134]. Bundan əlavə, H.Haverbek, tələbələrin tapşırıqları üzərində müzakirə və mübahisə etmək, öz fikirlərini bölüşmək və kursa dair materialların araşdırılması zamanı meydana çıxan problemləri həll etmək üçün Facebook sosial şəbəkəsinin onlayn öyrənmə qrupunun mahiyyətini araşdırmışdır [28, s.19].

Dil öyrənməni təkmilləşdirmək üçün istifadə edilən digər sosial şəbəkə elektron poçtdur. E-poçt tələbələrlə müəllim arasında "dialoq jurnalları"ndan istifadə etmək üçün istifadə olunur. Tədqiqatçılar araşdırmışlar ki, e-poçt dil öyrənənlərə müəllimləri ilə daimi əlaqə saxlamağa və sinifdən kənarda öz rəyini bildirməyə kömək edir. L.Li və M.L.Lyav bildirmişlər ki, e-poçt sistemi müxtəlif sahələrlə bağlı fəaliyyəti yerinə yetirməyin asan yoludur [39, s.18]. Həmçinin, hər iki tədqiqatçı ingilis dilini xarici dil kimi öyrənənlər arasında hədəf dillə qarşılıqlı əlaqəni sadələşdirmək üçün e-poçt sosial şəbəkəsinin təsirini nəzərdən keçirirlər və bu prosesi həyata keçirmək üçün müxtəlif

ölkə, mədəniyyət və dillərə aid olan müəllim və tələbələri e-poçt vasitəsilə bir araya gətirdilər. E-poçt ideyaları çatdırmaq və yazıları sosial fəaliyyətə çevirməkdə bir vasitə kimi istifadə edilmişdir. J.Andervud tələbələrə danışıqla bağlı bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə ispan dilində e-poçtdan istifadə etməyi irəli sürür və e-poçtun kifayət qədər müsbət cəhətlərininin olduğunu aşkar edir [56, s.413].Bundan başqa, N.Krunenberq öyrənənlərin qarşılıqlı əlaqəsini və bacarıqlarını inkişaf etdirmək üçün e-poçt sistemindən istifadə etmişdir [37, s.24].

Xarici dil tədrisinin mədəniyyətlər arasında tolerantlığa nail olmaqda oynadığı mühüm rol e-poçt sisteminin istifadəsinin son onilliklər ərzində sürətlə genişlənməsinə səbəb olur. Çünki xarici dilin tədrisi yalnız başqa bir dilin mənimsənilməsi prosesi deyil, həmçinin, yeni bir mədəniyyətin dərk edilməsi vasitəsidir. Elektron poçt yazısı qısa müddət ərzində bütün dünyaya yayıldı. Müəyyən edilmişdir ki, e-poçtun icrası müəllimlərə ayrı-ayrı tələbələri bütün dünyada doğma dil  daşıyıcıları və xarici dili öyrənənlərlə ünsiyyət qurmağa, onları bir araya gətirməkdə kömək edir. E-poçt vasitəsilə xarici dil öyrənməkdən faydalanmaq məqsədilə müəllimlər müxtəlif dillərdə olan tələbələrləə bəzi layihələr həyata keçirdilər. Məsələn, bəzi tədqiqatlarda alimlər Tayvandakı ingilis dilli tələbələrlə ABŞ-da ingilis dilində danışan tələbələr arasında müzakirə üçün E-poçtdan istifadə edərək sorğu keçirmiş və mədəniyyətlər arasında ünsiyyətin xarici dil öyrənilməsini asanlaşdırdığını və mədəni anlaşmanı təşviq etdiyini aşkar etmişlər.

Kompüter vasitəsilə qarşılıqlı ünsiyyət və əlaqə xarici dilin öyrənilməsində nəzarət və təşəbbüs üçün əlverişli hesab olunur. Xarici dilin mənimsənmə prosesində müəllim və dil öyrənənlərin kompüter texnologiyasından istifadəsi səmərəli xarakter daşıyır. R.Brus və N.Edukorp həmçinin bildirdilər ki, kompüter mediası tələbələrin öyrənmə vasitəsi kimi istifadə olunur [68, s.1092].  Həmçinin, kompüter texnologiyası xarici dil tələbələrinin kommunikativ səriştəsinin inkişafını asanlaşdırmaq üçün yeni bir vasitə kimi dərslərdə istifadə edilməkdədir. Tədqiqatçılar kompüter şəbəkəsinin mikrokompüter tərəfindən idarə olunan dil siniflərində rolunu araşdırmaqla

kommunikativ səriştə anlayışı, konseptual/funksional proqramlar və kommunikativ yanaşma əsasında dil tədrisi metodologiyalarını inkişaf etdirdilər.

Yaş, iqtisadi, sosial və s. problemlərə görə məhdudlaşdırılan xarici dil öyrənənlər kompüter şəbəkələri vasitəsilə evdə hədəf dili öyrənməli olurlar. Ancaq hər şeydən əvvəl, xarici dili öyrənənlər kompüterin bütün vacib xüsusiyyətlərindən necə istifadə etməyi bacarmalıdırlar. Sosial şəbəkələr, kompüter texnologiyası vasitəsi kimi, qısa müddətdə xarici dili öyrənmə prosesi ilə bütün problemləri həll edə bilməsə də, bu ədəbiyyat icmalı göstərir ki, Facebook, E-poçt kimi sosial şəbəkələrdən istifadə xarici dillərin öyrənilməsi prosesində bir çox maneələri aradan qaldıracaq.

## 2.2. Dilin tədrisində sosial şəbəkələrin istifadəsinin prinsipləri

Bu gün təhsil sahəsində baş verən dəyişikliklər təhsil paradiqmasının şəxsiyyətyönümlü paradiqmaya dəyişməsini göstərir ki, onun aparıcı komponenti şəxsi təkmilləşdirmə və inkişaf, aktiv vətəndaşlıq, sosial uyğunlaşma və həyat boyu tətbiq üçün zəruri olan əsas səlahiyyətlərdir.

Müxtəlif səviyyələrdə təhsilin keyfiyyətinə dair Təhsil Standartının tələblərinin həyata keçirilməsi innovativ təhsil texnologiyalarından istifadə etmədən mümkün deyil. Tədris prosesində innovativ texnologiyalar şagirdlərin idrak və yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, təhsilin keyfiyyətini və dərs vaxtından istifadənin səmərəliliyini artırmaq, tələbələrin reproduktiv fəaliyyətə sərf etdikləri vaxtın həcmini azaltmaq üçün nəzərdə tutulmuşdur. Bir çox yerli və xarici alimlər müasir təhsildə innovativ texnologiyalardan istifadənin vacibliyinə diqqət yetirirlər, çünki innovativ texnologiyalardan istifadə təhsilin məzmununu, metodlarını və formalarını əhəmiyyətli dərəcədə şaxələndirməyə imkan verir. Bundan əlavə, innovativ texnologiyalar tələbələrə müstəqil iş kimi səmərəli istifadə edilə bilən qeyri-məhdud miqdarda məlumat verir. Xarici dilin tədrisində innovativ texnologiyalardan istifadə xüsusilə aktual görünür.

Texnologiyanın düzgün istifadəsi müəyyən edilmiş təcrübəmizi daha effektiv şəkildə həyata keçirməyimizə və ya təcrübədə yenilik yaratmağımıza kömək etməklə öyrənməni asanlaşdıra bilər.

Onlayn vasitələr və texnologiyalar inkişaf etdikcə, sosial media tətbiqi öyrənmə fəaliyyətlərini dəstəkləmək üçün əsas vasitə kimi qəbul edilmişdir. Sosial media texnologiyaları müəllimlərə tapşırıqların yerinə yetirilməsi zamanı tələbələrə motivasiya vermək, onlarda özünəinam və şəxsi müstəqilliyi inkişaf etdirmək bacarıqları ilə təmin edir. Ümumilikdə, sosial mediadan istifadə etməklə təqdim olunan imkanlar istifadəçilərə zaman və coğrafi maneələrdən asılı olmayaraq əlaqələri inkişaf etdirmək və başqaları ilə ünsiyyət qurmaq imkanları təqdim edir. Facebook, Twitter, Instagram, YouTube və LinkedIn kimi populyar sosial media məkanları istifadə üçün intuitiv və hər hansı onlayn qoşulmuş cihazla tamamilə əlçatan olması üçün nəzərdə tutulmuşdur.

Sosial media və mobil cihazlardan istifadə həm bəzi müsbət, həm də mənfi xüsusiyyətlərlə səciyyələnir. Müsbət xüsusiyyətlərə kursun məzmununa daxil olmaq, video klip, təlimat qeydlərinin ötürülməsi və s. aiddir. Ümumilikdə tələbələr müvafiq məlumatların alınması vasitələri kimi sosial media və mobil cihazların münasib və rahat vasitə olduğunu hesab edirlər. Qərb ölkələrində aparılan araşdırmalar göstərir ki, birgə öyrənmə üçün sosial mediadan istifadə tələbələrin akademik performansına və məmnunluğuna əhəmiyyətli töhfə verir.

Sosial media və mobil cihazlar tələbələrə kursun məzmununa dair mətn, video və ya audio material yaratmağa, redaktə etməyə və paylaşmağa imkan verir. Bu texnoloji yeniliklər kollektiv kəşfiyyat və qarşılıqlı əlaqə prinsiplərinə əsaslanan öyrənmə mədəniyyətlərinin yeni növünü doğurur. Sosial media fenomenləri 2005-ci ildə veb 2.0 texnologiyasının təkmilləşməsindən sonra yarandı. Daha aydın şəkildə “veb 2.0 texnologiyası ideoloji və texnoloji təməl üzərində qurulan və istifadəçi tərəfindən irəli sürülən məzmunun yaradılmasına və mübadiləsinə imkan verən internet əsaslı proqramlar qrupu” kimi müəyyən edilir. Mobil cihazlar və sosial media tələbələrə

resurslara, materiallara, kursun məzmununa, mentor və həmkarları ilə qarşılıqlı əlaqəyə daxil olmaq üçün imkanlar yaradır.

Bloqlar, vikilər, media paylaşma xidmətləri, birgə redaktə alətləri kimi texnologiyalar tələbə və müəllimlərin “kollektiv intellektindən” istifadə edir, onları əməkdaşlıq və biliklərin mübadiləsinə təşviq edir. Müasir tələbələr artıq veb 2.0 texnologiyaları ilə tam məşğul olur, şəxsi həyatlarında sosial şəbəkə alətlərindən və onlayn sosial məkanlardan inamla istifadə edirlər. Bu, müəllimlərə texnologiyadan istifadə etməklə motivasiyanı artırmaq və tədris prosesində texnoloji vasitələrin istifadəsini artırmaq şansı verir. Veb-əsaslı təhsil infrastrukturunun inkişafı üçün zəruri hesab edilən dörd veb 2.0 prinsipinə aşağıdakılar daxildir:

1. ***Veb bir platforma kimi.*** Diqqətin kompüter əsaslı təhsildən veb-əsaslı təhsilə keçidi olmalıdır. Veb-əsaslı təhsil, veb biliklərin nəşri və paylaşılması, təlim materiallarına istinad edilməsi, qiymətləndirmənin aparılması, müəllim və tələbələr arasında ünsiyyət və əməkdaşlığın qurulmasına əsaslanan bir platformadır.
2. ***Kollektiv intellektin istifadəsi.*** Kollektiv intellektin istifadəsi bütün veb 2.0 fəaliyyətinin əsas prinsipi hesab olunur. İstifadəçilər artıq passiv müşahidəçi rolundan imtina edərək  yeni məzmunlar yaradan, müxtəlif veb saytlarda əməkdaşlıq edən üzvlərə çevrilirlər. Veb istifadəçilərin kollektiv fəaliyyəti mütəmadi şəkildə böyüdükcə hiperlinklər bu yeni məzmuna qoşulurlar.
3. ***Zəngin istifadəçi təcrübələri.*** İstifadəçi təcrübələri veb tələbələr üçün zəngin multimedia təhsil təcrübəsi təqdim edir. Mühazirələr və digər tədris materialları sinif əsaslı və virtual təlim məzmununun qüsursuz inteqrasiyası ilə müxtəlif formatlarda çatdırıla bilər.
4. ***Məlumat əldə etmə mənbəyi.*** Daha çox insan internetdən istifadə etdikcə, yaranan və təkmilləşən məlumatların da sayı artır. Təhsil məzmununun yaradılmasında  tələbə və müəllim iştirakının artması ilə məlumatın keyfiyyəti, etibarlılığı və əlçatanlığı yüksək səviyyəyə çatdırır. İnformasiya mənbələri və

materiallardan çox istifadə öz növbəsində, davamlı öyrənmə təcrübəsinə çevrilir [42, s.2].

Sosial şəbəkələr dünyanın kommunikasiya strukturunun əhəmiyyətli bir hissəsi kimi əsaslı şəkildə formalaşmışdır. Facebook, Google+ və Twitter kimi sosial şəbəkə xidmətləri insanları paylaşılan fəaliyyətlər vasitəsilə birləşdirir. Sosial şəbəkələrin üzvləri şəxsi profillər yarada, maraq qruplarına qoşula və video, şəkillər və musiqi yükləyə bilərlər. Sosial şəbəkələr istifadəçi profillərinin dost profilləri və digər sosial qruplarla əlaqələndirilməsi ilə böyüyür. Kommunal mesaj lövhələri olan onlayn icmalar məktəb , məşğulluq şəbəkələrindən və digər ortaq maraq qruplarından inkişaf edə bilər. Sosial şəbəkə istifadəçisi ictimai şərhlər yerləşdirmək və şəxsi mesajlar göndərməklə dostlar axtara, əlavə edə, ideyalar və hadisələri paylaşa bilər. Sosial şəbəkələr istifadəçilərə məlumat əldə edərkən əsaslandırılmış qərarlar qəbul etməyə imkan verən reytinq və ya "bəyənmə/bəyənməmə" seçimləri ilə əlaqəli tövsiyə sistemlərini özündə birləşdirir. Sosial şəbəkələrin üstünlüyü, bütün veb 2.0 alətlərində olduğu kimi, istifadənin asanlığı və əlçatanlığıdır. Bu sosial informasiya sistemləri mahiyyət etibarı ilə asudə vaxta yönəldilsə də, təhsil və digər məhsuldar məşğuliyyətlər üçün vasitələrdən istifadəyə diqqət artır.

İndiki məktəblilər və tələbələr yeni nəslin nümayəndələridir. Onlar müasir texnologiya mühitində doğulub böyüyüblər, bu da müəllimlərin materialı necə təqdim etməli olduğuna dair tələbələrin, gözləntilərinin dəyişməsinə səbəb oldu [52, s.111]. Müasir təhsilin tendensiyalarından biri innovativ təhsil texnologiyalarının tədris prosesinə getdikcə daha çox inteqrasiyasıdır, lakin bu, heç də multimedia proqramlarından hər hansı istifadənin uğurlu təlim nəticələrinə gətirib çıxaracağı anlamına gəlmir. Əksinə, indi müəllimlər və pedaqoqlar innovativ təhsil texnologiyalarını seçərkən həmişəkindən daha çox diqqətli olmalı və bu texnologiyaların ən səmərəli şəkildə həyata keçirilməsinə imkan verəcək prinsiplərə əməl etməlidirlər. Məsələn, tədris vasitəsi kimi kifayət qədər yaxşı qurulmuş PowerPoint təqdimatları, texnologiyadan istifadə etməklə öyrənmənin effektivliyini

artırmağa imkan verən prinsipləri nəzərə alınmayan zaman, onlardan istifadə həmişə effektiv olmur. Belə ki, M.Miller innovativ texnologiyalardan istifadə üçün zəruri olan aşağıdakı prinsipləri nəzərə alır və diqqətləri bu prinsiplərə cəlb edir:

- ***Siqnal prinsipi (Signaling Principle).*** Bu prinsipə əsasən, tədris prosesində materialın yalnız ən vacib tərəfləri xarici dil müəllimləri tərəfindən vizual olaraq vurğulanmalıdır.
- ***Məkan yaxınlığı prinsipi (Spatial Contiguity Principle).*** Bu prinsipdə deyilir ki, materialın daha yaxşı mənimsənilməsi üçün mətni və təsviri bir-birinə mümkün qədər yaxın yerləşdirməli, qrafiklərdən istifadə edərkən mətni onların ən əhəmiyyətli hissələrinin olduğu yerə yerləşdirilməlidir.
- ***Müvəqqəti yaxınlıq prinsipi (Temporal Contiguity Principle).*** Bu prinsipə əsasən, təsvirlər və izahatlar qrafiklərin və şəkillərin nümayişi ilə eyni vaxtda daxil edilməlidir, çünki hətta kiçik vaxt dövrləri də istənilən nəticənin əldə edilməsinə mane olacaqdır.
- ***Seqment prinsipi (Segmenting Principle).*** Çətin materialı izah edərkən və ya mövzu ilə yaxşı tanış olmayan tələbələrlə işləyərkən material daha qısa seqmentlərə ayrılmalı, həmçinin, tələbələrin bir seqmentdən digərinə keçmə sürətinə nəzarət etməyə imkan verilməlidir.
- ***Təlimdən əvvəl prinsip (Pretraining Principle).*** Tələbələr təqdimatda istifadə olunacaq terminologiya ilə tanış deyillərsə, əsas anlayışları ətraflı izah etmək üçün ayrıca modul yaradılmalıdır.
- ***Modal prinsip (Modality Principle).*** Əgər mətndə texniki terminlər yoxdursa və ya tələbələr başqa dildə danışan deyillərsə, qrafik təsvirlər mətn deyil, audio müşayiəti ilə dəstəklənərsə, şagirdlər materialı daha yaxşı yadda saxlayarlar [43, s. 155].

Ali təhsil müəssisələrində təhsil müddəaları ali təhsil standartları ilə müəyyən edilən kompetensiyaya əsaslanan yanaşmaya malikdir. Elmi-metodiki ədəbiyyatın

təhlili göstərir ki, sosial şəbəkələrdən istifadə edərək xarici dilin tədrisi prosesi xarici dil peşəkar informasiya səriştəsinin formalaşmasına və inkişafına kömək edir.

Sosial media tələbələr və ümumən cəmiyyət arasında sosial qarşılıqlı əlaqələrin inkişafında böyük rol oynayır. Bu, sinif divarlarından cəmiyyət daxilində olmaq üçün tədrisin sərhədlərini genişləndirmək deməkdir. G.Kinq və M.Sen tədrisdə sosial əlaqələrlə bağlı üç elm öyrənmə prinsipini vurğulamışlar:

Prinsip 1: Sosial əlaqələrin qurulmasını təşviq edir, yəni tələbələri sosial qarşılıqlı əlaqəni əhatə edən və ya cəmiyyətə fayda gətirən hərəkətlər etməyə məcbur etmək, məsələn, təkrar emal etmək çox vaxt daha asandır.

Prinsip 2: Tədris prosesində müəllimə xüsusi bir informasiya və ya məlumatı öyrədir, burada ənənəvi tədris vəziyyətindən fərqli olaraq tələbələrə sosial formada öyrənməklə məşğul olmaq imkanı verilir.

Prinsip 3: Sürətli əlaqə öyrənməyi təkmilləşdirir, burada dərhal və tez-tez verilən rəylər öyrənmə və tədrisi də yaxşılaşdırır [34, s.621].

Onlayn əməkdaşlıq üçün yeni platformalar bizim iş və ünsiyyət tərzimizi əsaslı şəkildə dəyişir. Sosial media insanlar, həmkarlar və bütövlükdə dünya ilə əlaqə qurmağın yeni yollarını təklif edir. Bu yeni model daha güclü, daha uğurlu əlaqələr qurmağa kömək edə bilər və düzgün istifadə edildiyi halda, universitetin nüfuzunun və maraqlarının yüksəldilməsinə böyük töhfə verə bilər. Bunun üçün sosial şəbəkələrdən istifadənin bir neçə prinsipləri müəyyən edilmişdir:

- Aydın bir plan, strategiya, məqsədlər və məsuliyyət xətti olmadan sosial şəbəkələrlə tədris zamanı məşğul olmayın;
- Davamlı monitorinq, texniki xidmət və vaxtında reaksiya üçün cavabdeh olun;
- Şəffaf olun və təhrifdən çəkinin;
- Bildiklərinizi yazın və şərh yazarkən öz təcrübə sahənizi qoruyun;
- Tələbələrə bilik və bacarıqları ilə bağlı üstünlüklərini və yaxud çatışmazlıqlarını bildirin, məlumatları paylaşmaqda qrup iştirakçısı olun;

- Mənalı, hörmətli şərhlər yerləşdirin — spam və ya mövzudan kənar və ya qeyri-peşəkar şərhlərə yol verməyin;
- Göndərməzdən əvvəl həmişə fasilə verin, düşünün və əmin deyilsinizsə, mütəxəssislə məsləhətləşin;
- Səhv etsəniz, bunu etiraf edin, düzəlişlərinizi əvvəlcədən və tez edin;
- Bütün iştirakçıların məxfiliyinə hörmət edin və heç vaxt tələbə məlumatlarını açıqlamayın;
- İstinad etdiyiniz və ya istifadə etdiyiniz yazılı məzmun, şəkillər və ideyaların mənbələrini qeyd edin;
- Mənfi şərhləri və inkişafları tez, peşəkar və strateji şəkildə idarə edin;
- Həmişə qrammatik cəhətdən düzgün cümlələrdən istifadə edin və universitet üslubuna uyğun olaraq əlçatan yazın [67, s.3].

Araşdırmamız zamanı əldə etdiklərimizi umimiləşdirsək deyə bilərik ki, günümüzdə mövcud olan çoxsaylı sosial şəbəkələrin hər birinin özünəməxsus xüsusiyyətləri və tərtibatları vardır. Bu şəbəkələrin hər biri zaman keçdikcə yenilənir və müxtəlif dəyişikliklərlə istifadəçilərə təqdim olunur. Hər birinin özünəməxsus xüsusiyyətlərinin olmasına baxmayaraq, sosial şəbəkələrin ortaq cəhətlərindən ən başlıcası onların tədris prosesində geniş istifadə imkanlarının olmasıdır. Belə ki, sosial şəbəkələr müəllim və tələbələrə dərsdənkənar istənilən zamanda və istənilən yerdə əlaqə yaratmaq üçün imkan verən, akademik qurumlarda istifadə olunan ümumi vasitələrə çevrilib. İnternet vasitəsilə  xarici dil öyrənənlər istədikləri zaman bir çox insanlarla, ailələri, dostları və hətta müəllimləri ilə əlaqə saxlaya bilərlər. Xarici dil öyrənənlər müxtəlif növ bilikləri öyrənə və müxtəlif mədəniyyətlərin qanunları ilə tanış ola bilərlər. Dil və mədəniyyət bir-birindən asılıdır və xarici dil mədəniyyətini dərk etmək dili dərk etməyi təkmilləşdirir. İnternetdə mövcud olan alətlər və resurslar qrup sənədləri üçün yaxşı sahələr təqdim edir və dörd dil bacarığını inkişaf etdirməyin ən yaxşı yollarını təklif edir. Daha inamlı olmaq öyrənənlərin ikinci dildən real istifadə etməklə ünsiyyət zamanı əldə etdikləri mühüm xüsusiyyətdir. Digər tərəfdən, kompüter mediası

öyrənənləri dil biliklərindən asanlıqla istifadə etməyə və problemlərini həll etməyə cəlb edən faydalı modellərdir. Dil öyrənənlər siniflə məhdudlaşmaq əvəzinə dünyadakı həmyaşıdları ilə ünsiyyətlərini artırırlar. Beləliklə, kompüter mediası sinifdən kənar tələbə-tələbə və tələbə-müəllim qarşılıqlı əlaqəsinin formalaşmasında təsirli olur.

Tədqiqat işimizdə sosial şəbəkələrin prinsiplərinə gəldikdə isə, M.Miller tərəfindən irəli sürülən prinsiplər əsas götürülmüşdür. Belə ki, M.Miller innovativ texnologiyalardan istifadədə siqnal prinsipi, məkan yaxınlığı prinsipi, müvəqqəti yaxınlıq prinsipi, seqment prinsipi, təlimdən əvvəl prinsipi, modal prinsip olmaqla 6 prinsipi qeyd edir.

Həmçinin tədqiqat işində tədris zamanı uğur əldə etmək, öyrənənlərin dili daha yaxşı mənimsəməsini təmin etmək üçün sosial şəbəkədən istifadənin bir neçə müəyyən olunmuş prinsiplərindən də bəhs olunur. Bunlara aydın tədris planının qurulması, tədrisn məqsədlərinin və strategiyalarının düzgün müəyyənləşdirilməsi, danışarkən aydın, səlis, lakonik ifadələrdən istifadə edilməsi və s. daxildir. Beləliklə, sosial şəbəbkələrdən istifadə edərək xarici dilin tədrisini uğurla həyata keçirmək üçün müəllimlər onlardan istifadənin əsas prinsiplərindən xəbərdar olmalıdırlar. Əks təqdirdə, sosial şəbəkələrin istifadəsi qarşıya qoyulan məqsədlərə çatmaq üçün səmərə verməz.

### 2.3. Eksperimental təhlil

Təhsilin müasir inkişafı mərhələsində elektron resursları, xüsusən də qlobal internet şəbəkəsinin resursları təlim prosesinin tərkib hissəsinə çevrilir. Təhsil prosesində YouTube video hostinqi də daxil olmaqla onlayn resursların imkanları akademik fənlərin öyrənilməsinə, ilk növbədə ingilis dilinin öyrənilməsinə marağın formalaşdırılması və inkişaf etdirilməsi vasitəsinə çevrilə bilər.

Sosial şəbəkə saytları geniş yayılsa da, onlar da daim dəyişir, təkmilləşir. Öyrənənlərə yazılı diskursda iştirak etmək imkanlarını təklif edən alətlər (məsələn,

Facebook, LinkedIn və ya Twitter) ; əsasən şifahi diskursa diqqət yetirənlər (məsələn, PodOMatic, VoiceThread və ya video mesajlaşma saytları); və şəkillərin paylaşılmasını vurğulayanlar (məsələn, Instagram, Pinterest və ya SnapChat) olmaqla iki yerə bölünür. Cədvəl 1 yuxarıda qeyd olunan nəzəri perspektivlərə əsaslanaraq, dil dərslərində istifadə üçün perspektivli potensiala malik olan cari populyar və sərbəst mövcud sosial şəbəkə saytlarının seçimini göstərir.

Cədvəl 1.

| AD | TƏSVİR | URL |
|---|---|---|
| *EsModo* | Təhsil yönümlü sayt olaraq, məşhur sosial şəbəkə saytlarının tərtibatını paylaşır. Sinifə qoşulmaq və əməkdaşlıq etmək, məzmun paylaşmaq və ev tapşırığı, qiymətlər və məktəb bildirişlərinə daxil olmaq üçün təhlükəsiz və asan yol təqdim edir. | www.edmodo.com |
| *Facebook* | Onlayn sosial şəbəkə xidməti, əvvəlcə tələbələr üçün nəzərdə tutulmuşdur, lakin indi ümumi əhaliyə şamil edilir. | www.facebook.com |
| *Google Hangout* | “Hangouts” pulsuz olaraq fotoşəkillər, emojilər və hətta qrup video zəngləri ilə söhbətləri canlandırır. Kompüter, Android və Apple cihazlarında dostlarla əlaqə saxlayan zaman istifadə edilir. | www.google.com/hangouts |
| *GroupMe* | Microsoft-a məxsus mobil qrup mesajlaşma proqramıdır. | www.groupme.com |
| *Instagram* | İstifadəçilərə şəkillər və videolar çəkməyə, onlara rəqəmsal filtrlər tətbiq etməyə və onları Facebook, Twitter, Tumblr və Flickr kimi | www.instagram.com |

| | | |
|---|---|---|
| | müxtəlif sosial şəbəkə xidmətlərində paylaşmağa imkan verən onlayn foto paylaşma, video paylaşma və sosial şəbəkə xidmətidir. | |
| *LinkedIn* | Facebook-a oxşar funksionallığı olan biznes yönümlü sosial şəbəkə xidmətidir. | www.linkedin.com |
| *PodOMatic* | İstifadəçilərə həm audio, həm də video podkastları asanlıqla tapmaq, yaratmaq, yaymaq, təbliğ etmək və dinləmək imkanı verən alətlər və xidmətlərin yaradılması üzrə ixtisaslaşmış vebsaytdır. | www.podomatic.com |
| *VoiceThread* | İstifadəçilərə şəkillər, sənədlər və videolar əlavə etməyə imkan verən və digər istifadəçilərin səs, mətn, audio fayl və ya video şərhləri əlavə edə biləcəyi interaktiv əməkdaşlıq və paylaşma vasitəsidir. | www.voicethread.com |

Bununla belə, təhsil təcrübəsində müəllimlər çox vaxt öz fəaliyyətlərinin və tələbələrin fəaliyyətlərinin məqsəd və alqoritmini dəqiq formalaşdırmadan, onların əhəmiyyətini intuitiv şəkildə dərk edərək, internet resurslarından olduqca kortəbii şəkildə istifadə edirlər. Fikrimizcə, ingilis dilinin tədrisində internet resursları əsasən aşağıdakı məqsədlərə nail olmağı təmin edir: dilin öyrənilməsinə idraki marağın formalaşdırılması və xarici dil kommunikativ səriştəsinin formalaşdırılması.

Psixoloqların fikrincə, marağın əsas mənbəyi sosial həyat və insan fəaliyyətidir. Məhz fəaliyyət vasitəsilə insan maraqlarının inkişafını, onların məzmununu və istiqamətini izləmək olar. L.A.Qordonun tərifinə görə, maraq şüurun fəaliyyətini və insan fəaliyyətini artıran emosional və intellektual proseslərin bir növ qaynaşmasıdır [6, s. 176].

Maraq və fəaliyyət bir-biri ilə bağlıdır və bir-birindən asılıdır: maraq fəaliyyətin motivinə çevrilir, fəaliyyət marağı təmin edir, onu inkişaf etdirir, zənginləşdirir və keyfiyyətcə yeni səviyyəyə qaldırır. Beləliklə, idrak marağının inkişafı müəyyən təlim nəticələrinin əldə edilməsinə səbəb olur.

Xarici dilin tədrisi çərçivəsində İKT-dən istifadənin üstünlükləri arasında E.B.Belyaeva aşağıdakı kimi xüsusiyyətləri vurğulayır:

- orijinal materiallara giriş;
- hazır təlim materiallarının mövcudluğu;
- xarici dil mühitinə dalmaq imkanı;
- praktiki dil fəaliyyəti ilə bağlı tapşırıqlarda faktiki dəyişikliklərin əks olunması [5, s. 125].

Xarici dilin tədrisi zamanı internet resurslarından istifadə oluna bilər: axtarış məlumat sistemləri, onlayn lüğətlər, tərcüməçilər, ensiklopediyalar, məlumat kitabçaları, oyunlar, podkastlar, virtual turlar və s.

Tələbələrə öyrənmə videoları yaratmağa, paylaşmağa və şərh etməyə icazə verməklə, YouTube tələbələri yaradıcı və birgə öyrənmə mühitinə cəlb edir. Təlimin məhsuldar və yaradıcı xarakteri təlim məşğələlərinin təşkilində müsbət dəyişikliklərə kömək edir.

YouTube portalında çoxlu sayda video material tapmaq olar: xarici dilin tədrisi prosesində istifadə üçün xüsusi olaraq yaradılmış tam hüquqlu video dərslərdən tutmuş bloggerlər tərəfindən quraşdırılmış bloqlara qədər. Onlar da tədris prosesinə fəal şəkildə daxil edilə bilər.

YouTube diskursunun özəlliyi ondan ibarətdir ki, videolarda, təsvirlərdə və xüsusən şərhlərdə orfoqrafiya və qrammatika qaydalarına etinasızlıq, strukturların qəsdən dəyişdirilməsi müşahidə olunur. Bu xüsusiyyətləri nəzərə alaraq müəllim üçün təkcə öyrənilən mövzuya uyğun videoçarx seçmək deyil, həm də ən əsası məzmunun ekspert qiymətləndirilməsi, “tənqidi təhlil” aparması vacibdir.

Tədqiqat işinin nəzəri hissəsində əldə etdiyimiz məlumatları praktiki olaraq yoxlamaq üçün eksperimental tədris təşkil etdik. Pedaqoji ensiklopediyaya görə, eksperimental tədris və ya tərbiyə işi sahəsində pedaqoji elmi əsaslandırılmış təcrübə, tədqiq olunan pedaqoji hadisənin tədqiqatçı tərəfindən yaradılmış və idarə olunan şəraitdə müşahidəsidir.

Beləliklə, eksperiment tədqiqatçı üçün maraq doğuran hadisənin xüsusi şəraitin formalaşması ilə yaranan elmi tədqiqat üsuludur. Müşahidə yolu ilə təbii şəraitdə bir hadisənin öyrənilməsindən fərqli olaraq, təcrübə bu hadisəni digərlərindən süni şəkildə ayırmağa, subyektlərə məruz qalma şəraitini dəyişdirməyə, tədqiq olunan hadisədə fərdi amilləri təkrarlamağa, dəyişdirməyə imkan verir.

Azərbaycan Dillər Universitetinin Təbriz korpusunda 2022-ci tədris ilində 1-30 mart tarixlərində pedaqoji təcrübə zamanı eksperimental iş aparılmışdır. Eksperimentə Təhsil 2 fakültəsi, İbtidai sinif müəllimliyi( tədris ingilis dilində) ixtisasından 2-ci kurs tələbələri cəlb olunub.

İlk olaraq heç bir əlavə vasitələrdən istifadə etmədən ənənəvi formada kontrol dərs keçirildi. Bu dərs 15 mart 2022-ci ildə 316-cı auditoriyada 229a və 229b qruplarında təşkil edildi. Kontrol dərs bu iki qrupun birləşməsi ilə keçirilən "Methods of teaching English in primary school" fənni üzrə təşkil edildi. Dərs ənənəvi formada başladı. Əvvəlcə tələbələri salamladım. Daha sonra tələbələrin davamiyyətini yoxlayaraq qiyməti olmayan tələbələri müəyyənləşdirdim. Onlardan sonuncu dəfə verilən ev tapşırığını soruşdum. Dərsin gedişində tələbələrdən sadəcə qiyməti olmayan tələbələrin aktiv olduğunu müşahidə etdim. Dərsi danışan tələbələrə mövzu ilə əlaqədar bir neçə sual verdikdən sonra onları qiymətləndirdim.

Növbəti dəfə eyni fənn üzrə eksperimental dərs təşkil olundu. Bu dərsdə əlavə vasitələrdən istifadə etdim. İlk olaraq ənənəvi qaydada tələbələri salamlayıb davamiyyəti yoxladım. Ev tapşırığını yoxladıqdan sonra mövzu ilə əlaqədar bir neçə sual verdim. Ev tapşırığı "TPR – Total Physical Response. Steps for teaching TPR lessons" mövzusu idi. Tələbələrdən "total physical response" dedikdə nə başa

düşdüklərini öz fikirləri ilə izah etmələrini xahiş etdim. Beləliklə, dərsə hazır olmayan tələbələr də dildən istifadə edərək müzakirəyə qoşulmaq imkanı qazandı. Daha sonra tələbələri qiymətləndirmək üçün əyləncəli, həm də bütün sinifin qoşula biləcəyi bir fəaliyyət növündən istifadə etdim – Kahoot oyunundan. Bu oyun son zamanlarda dil tədrisində olduqca maraqlı, əyləncəli və çoxşaxəli bir proqramdır. Tələbələrə qabaqcadan hazırladığım kahoot oyununa qoşulmaları üçün telefonlarında "google" axtarış sətrinə "kahoot" yazmalarını tapşırdım. Bu zaman proyektor vasitəsilə həmin saytdakı sualların lövhədə də görünməsini təmin etdim. Proqrama daxil olan tələbələr qeydiyyatdan keçdikdən sonra əvvəlki mövzular və yeni mövzu ilə bağlı test tipli sualları cavablandırdılar. Bütün suallar bitdikdən sonra ən tez və ən çox düzgün cavab verən 5 tələbənin adı ekranda göründü. Həmin tələbələri qiymətləndirdim. Bu tapşırığın sadəcə 20-30 dəqiqə vaxt aparmasına baxmayaraq, olduqca əyləncəli və bütün tələbələrin qatılmaq imkanı olduğundan tələbələr tərəfindən də bəyənildi. Daha sonra yeni dərsi tələbələrə izah etmək üçün hazırladığım prezentasiyanı tələbələrə təqdim etdim. Təqdimat zamanı "TPR – Teaching objectives, class arrangement activities" mövzusunda ara-ara tələbələrə suallar verərək onların diqqətini dərsə yönləndirməyə, fikir bildirməyə, dildən istifadəyə təşviq etməyə çalışdım.

Beləliklə, kontrol dərs zamanı ənənəvi formada tələbələrin bir qismi passiv qalmış, dərs monoton və cansıxıcı keçmişdi. Eksperimental dərsdə isə bir sıra əlavə vasitələrdən, internetdən, İKT vasitələrindən istifadə etməklə dərsdə tələbələrin əksəriyyətinin aktivliyinə nail olunmuş, daha əyləncəli və səmərəli dərs mühitinin yaradılmasına imkan yaranmışdır. Tələbələrin hər iki dərsdəki fəaliyyətini cədvəl və diaqram formasında aşağıdakı kimi göstərə bilərik.

Cədvəl 2.

| Tələbələrin əldə etdiyi nailiyyətlər | Nəzarət (kontrol) qrupu | Eksperimental qrup |
|---|---|---|
| Qazanılan bilik | 15-20% | 50-55% |

| | | |
|---|---|---|
| Dildən istifadə | 10% | 30-40% |
| Aktivlik | 10% | 60% |
| Ünsiyyət | 5-6% | 40% |
| Əməkdaşlıq | 5-6% | 45-50% |
| Motivasiya | 10-15% | 70% |

Hesab edirik ki, eksperimental tədris zamanı kontrol və eksperimental qrup tələbələrinin fəaliyyətlərinin müqayisəsi tələbələrin ingilis dilini öyrənmək prosesinə cəlb olunmasını ən aydın və dəqiq şəkildə göstərir. Bu eksperimentin köməyi ilə sübut etdik ki, sosial şəbəkələr, internet və İKT vasitələri tələbələrin xarici dil biliklərini inkişaf etdirir, təlim prosesinin iştirakçıları arasında emosional əlaqə yaratmağa kömək edir, onlara qrup şəklində necə fəal iştirak etməyi öyrədir.

# NƏTİCƏ

Tədqiqat işi "Sosial şəbəkələrin dilin tədrisində rolu" mövzusuna həsr edilmişdir. Mövzu ilə bağlı aparılan araşdırmalardan əldə edilən məlumatlar dissertasiya işinin fəsillərində qeyd edilmişdir. Bu məlumatların ümumiləşdirilməsindən konkret olaraq aşağıdakı nəticələrə gələ bilərik:

1. İnternet xarici dil öyrənənlər üçün tədris prosesində bir sıra imkanlar yaradır:

- Müstəqil öyrənməni təmin edir;
- Ümumbəşəri ruhun qurulması üçün böyük əhatə dairəsinə sahibdir;
- Başqa mədəniyyətlərə qarşı tolerantlığı, mədəniyyətlərarası səriştənin formalaşdırır;
- İfadə azadlığını stimullaşdırır, çoxistiqamətli qarşılıqlı fəaliyyət perspektivi ilə virtual görüşlərlə bağlı rəylərin istifadəçilərin istədiyi saydadır və sərfəlidir [33, s.53].

2. Qloballaşan, müasir dünyamızda internetin istər gündəlik həyatımızın müxtəlif sahələrində, istərsə də təhsildəki əhəmiyyəti danılmazdır. Tələbələrin biliklərinin artırılması məqsədilə dərslərdə müasir texnologiyalar, o cümlədən internetdən istifadə edilməsi olduqca mühümdür. Bunun üçün də, kompüter biliklərinə sahib olan, internetdə işləməyi bacaran, texnoloji savada sahib müəllimlərin yetişdirilməsi lazımdır. Çünki internet təhsilə o zaman müsbət təsir göstərir ki, tələbə internetdə işləməyi, məlumatların axtarılması və seçilməsi bacarıqlarına sahib olsun. Bu bacarıqlar isə tələbələrdə müəllimlər, yaxud repetitorlar tərəfindən formalaşdırılır və inkişaf etdirilir.
3. Müəllimlər texnologiyanın yalnız bir vasitə olduğunu və riskləri hesablayarkən onun özünün və tələbələrinin xeyrinə necə istifadə oluna biləcəyini dərk etməlidirlər. Həmçinin, texnologiya insanlara aid bir məfhum olduğundan, texnologiya haqqında mövcud fikirləri yazıçı, pedaqoq və filosof C.S.Lyuisin güc, güclər və insanlar haqqında dedikləri ilə uyğunlaşdırmaq doğru olardı: "İnsanın qazandığı hər yeni güc insan üzərində gücdür. Hər irəliləyiş onu daha

da zəiflətdiyi kimi daha güclü edir. O, hər qələbədə qalib gələn general olmaqla yanaşı, həm də zəfər maşınının arxasınca gedən məhbusdur” [40, s.419].

4. İnternet yalnız ünsiyyət vasitəsi deyil, həmçinin də mükəmməl tədqiqat mənbəyi, dünyanın hər yerindən son xəbərlətr əldə etmək üçün əlverişli vasitə, istənilən zaman və yerdə təhsil almaq istəyən şəxslərə asinxron təhsil imkanı verən bir platformadır. İnternetdən təhsil sahəsində istifadə yalnız lazımi material və məlumatların əldə edilməsində deyil, eyni zamanda fiziki məhdudiyyətli, yaxud tam iş saatı ilə çalışan və ya başqa bir ölkə/şəhərdən təhsil almaq istəyən tələbələrin təhsil almasında istifadə olunur. təhsilin bu formasına distant təhsil, onlayn təhsil və ya internet-əsaslı təhsil də deyilir. İnternetdən istifadənin bir çox üstünlükləri olsa da bu üstünlüklər düzgün dəyərləndirilmədiyi zaman uğursuzluğa da gətirib çıxara bilər. Odur ki, interneti təhsil prosesində istifadə etməzdən əvvəl müəllimlər ondan istifadəni öyrənməli, daha sonra öz tələbələrinə internetdən düzgün istifadəni öyrətməlidir ki, internetdən istifadə yalnız bu halda dərsin keyfiyyətini yüksəldə bilər.
5. Yaş, iqtisadi, tibbi və s. kimi bəzi problemlərə görə məhdudlaşdırılan xarici dil öyrənənlər kompüter şəbəkələri vasitəsilə evdə dil öyrənməli olurlar. Ancaq hər şeydən əvvəl xarici dil öyrənənlər kompüterin bütün vacib xüsusiyyətlərindən necə istifadə etməyi öyrənməlidirlər. Sosial şəbəkələr, kompüter mediası kimi, qısa müddətdə bütün öyrənmə problemlərini həll edə bilməsə də, bu ədəbiyyat icmalı göstərir ki, Facebook, e-poçt və kompüter mediası kimi sosial şəbəkələrdən istifadə xarici dillərin öyrənilməsində maneələri aradan qaldıran vasitələr hesab olunur.
6. Müasir təhsilin tendensiyalarından biri innovativ təhsil texnologiyalarının tədris prosesinə inteqrasiya olunmasıdır, lakin bu, heç də multimedia proqramlarından hər hansı istifadənin uğurlu təlim nəticələrinə gətirib çıxaracağı anlamına gəlmir. Əksinə, indi müəllimlər və pedaqoqlar innovativ təhsil texnologiyalarını seçərkən həmişəkindən daha çox diqqətli olmalı və bu texnologiyaların ən

səmərəli şəkildə həyata keçirilməsinə imkan verəcək prinsiplərə əməl etməlidirlər. Sosial şəbəkələrdən istifadənin müxtəlif alimlər tərəfindən müxtəlif prinsipləri irəli sürülmüşdür ki, tədqiqat işmizdə M.Miller tərəfindən irəli sürülən prinsiplər əsas götürülmüşdür. Belə ki, M.Miller innovativ texnologiyalardan istifadədə siqnal prinsipi, məkan yaxınlığı prinsipi, müvəqqəti yaxınlıq prinsipi, seqment prinsipi, təlimdən əvvəl prinsipi, modal prinsip olmaqla 6 prinsipi qeyd edir. Həmçinin tədqiqat işində tədris zamanı uğur əldə etmək, öyrənənlərin dili daha yaxşı mənimsəməsini təmin etmək üçün sosial şəbəkədən istifadənin bir neçə müəyyən olunmuş prinsiplərindən də bəhs olunur. Bunlara aydın tədris planının qurulması, tədrisn məqsədlərinin və strategiyalarının düzgün müəyyənləşdirilməsi, danışarkən aydın, səlis, lakonik ifadələrdən istifadə edilməsi və s. daxildir ki, bunlarla dissertasiya işinin ikinci fəslində daha ətraflı bəhs etmişik.

7. Tədqiqat işinin sonunda eksperimental tədris təhlil edilərək aşkar edilmişdir ki, sosial şəbəkələr, internet və İKT vasitələri tələbələrin xarici dil biliklərini inkişaf etdirir, təlim prosesinin iştirakçıları arasında emosional əlaqə yaratmağa kömək edir, onlara qrup şəklində necə fəal iştirak etməyi öyrədir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


***Azərbaycan dilində:***

1. Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. ARTPİ-nin elmi əsərləri, 2006, səh 132
2. İsa İsmayılov, Cavid Abdullayev.Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları. Tədrisdə onlardan istifadə metodikası, Bakı, 2006
3. Azərbaycan Respublikasi Təhsil Nazirliyi Təhsil Problemləri Institutu. “Təlim prosesində yeni pedaqoji və İKT texnologiyalardan istifadənin elmi əsasları və təlimin keyfiyyətinə onların təsiri” hesabat. Bakı, 2012
4. Fazilova İlahə. Yeni informasiya texnologiyalarının öyrənmə prosesinə tətbiqində müəllimin rolu. Bakı, 2015

***Rus dilində:***

5. Беляева Е.Б. Модель развития познавательного интереса на основе информационно-коммуникационных технологий / Е. Б. Беляева // Педагогическое образование в России. – 2014. – № 7. – С. 124–128
6. Гордон Л.А. Психология и педагогика интереса / Л. А. Гордон. – Киев: Ряданьска школа, 1990. – 324 с.
7. Кузьминова М.В. Использование профильной информации глобальных социальных сетей при обучении иностранному языку в ВУЗе / М. В. Кузьминова // Вестник Калужского университета. – 2014. – № 4 (25). – С. 50–54
8. Полоян А.В. Технологии Google в организации работы преподавателя / А. В. Полоян, В. А. Нехрест // Таврический научный обозреватель. – 2015. – № 5. – С. 50–52.

### *İngilis dilində:*


**9.** Abidin M.J.Z., Ahmad N., and Kabilan M. K. Facebook: An online environment for learning of English in institutions of higher education. Internet and Higher Education, 13(4), 2010, p.179–187., p.185

**10.** Anikina Z., Sobinova L., Petrova G. Integrating Tellecolaboration into EFL Classroom: Theoretical and Practical Implication. Procedia-Social and Behavioral Sciences 206. 2015, pp.156-161.

**11.** Beauvois M. H. Conversations in slow motion: Computer-mediated communication in the foreign language classroom. The Canadian Modern Language Review, 54(2), 1998, pp.198–217.

**12.** Bhattacharyya P., Garg A., Felix W.S.: Social Network Model based on Keyword categorization. In ASONAM'09: Proc. Of International Conference on Advances in Social Network Analysis and Mining, IEEE Computer Society 2009

**13.** Blake R. The role of technology in second language learning. In H. Byrnes (Ed.), Learning foreign and second languages: Perspectives in research and scholarship (pp. 209-237, s.210). New York: Modern Language Association. 1998

**14.** Blattner G., Fiori M. Facebook in the language classroom: Promises and possibilities. Instructional Technology and Distance Learning, (ITDL), 6(1), 2009, pp.17−28.

**15.** Bloch J. From the special issue editor. Language Learning & Technology, 12(2), 2008, pp.2−6.

**16.** Burgess J. Blogging to learn, learning to blog: In: Bruns, A., Jacobs, J. (eds.). (2006). Peter Lang, New York. 2006, pp.104–114

**17.** Carmean C., Haefner J. Mind over matter: Transforming course management systems into effective learning environments. EDUCAUSE Review, 37(6), 2002, pp.27-37.

**18.**Cellary W. Edukacja w globalnym społeczeń stwie informacyjnym. Presentation at16th Conference "Informatyka w Szkole". Mielec: 2000.

**19.**Charp S. The millennium classroom. T.H.E. Journal, 27(10), 2000. pp.10-12.

**20.**Cononelos T. & Oliva M. Using computer networks to enhance foreign language, culture education. Foreign Language Annals, 26(4), 1993. pp.527-534.

**21.**Danah M.B., Nicole B.E. Social Network Sites: Definition, History, and Scholarship, Michigan State University, 2007

**22.**Dogruer N, Eyyam R. and Menevis İ. The use of the internet for educational purposes. Procedia - Social and Behavioral Sciences 28 (2011) 606 – 611. Elsevier Ltd: 2011

**23.**Dryli O.E., Kinnaman D.E. Part 2: Energizing the classroom curriculum through telecommunications. Technology and Learning, 16(4), 1996, pp.57-70

**24.**George D.R., Dellasega C. Use of social media in graduate-level medical humanities education: two pilot studies from Penn State College of Medicine. Medical teacher, 33(8), 2011, pp.429-e434.

**25.**Greenhow C. Online social networks and learning. On the Horizon, 19(1), 2011, pp.4-12.3

**26.**Grey D. The Internet in School. London and New York: Cassell. 1999

**27.**Hamilton B. Young adult literature. Library media Connection, 28(3), 2009, pp.14–15

**28.**Haverback H. Facebook: Uncharted territory in a reading education classroom. Reading Today, 2009

**29.**Herring James. The internet and information skills. London: Facet Publishing, 2004

**30.**Janda T. On a role: Exploring the concept of voice and audience. In M. warschauer (Ed.), Virtual Connections: Online activities and projects for

networking language learners (pp. 70-71). Honolulu, HI: University of Hawaii. 1995

**31.**Kasanga L. Peer Interaction and Second Language Learning. Canadian Modern Language Review, 52(4), 1996, pp.611-639

**32.**Kendle A., Northcote M. Informal online networks for learning: Making use of incidental learning through recreation. Paper presented at the International Education Research Conference, December 2–6, Fremantle, Australia. 2001

**33.**Khannanov A. İnternet in education: Support materials for educators. UNESCO Institute for Information Technologies in Education, Moscow, 2003.

**34.**King G., Sen M. The Teacher: How Social Science Research Can Improve Teaching American Political Science Association, PS: Political Science and Politics 46, no. (3), 2013, pp.621-629

**35.**Kitsis S.M. The Facebook generation: Homework as social networking. English Journal, 98(2), 2008, pp.30–36.

**36.**Krajka J. English language teaching in the internet-assisted environment – issues in the use of the web as a teaching medium. Lublin, Maria Curie-Skłodowska University Press, 2007

**37.**Kroonenberg N. Developing communicative and thinking skills via e mail. TESOL J 4(2), 1995, pp.24-27.

**38.**Kumar Agarwal M. İnternet-based language learning and teaching. Innovative infotechnologies for science, business and education, ISSN 2029-1035 - Vol. 1(8) 2010 - pp. 3-7.

**39.**Lee L. Enhancing learners' communication skills through synchronous electronic interaction and task-based instruction. Foreign Language Annals, 35(1), 2002, pp.16–24.

**40.**Lewis C. S. The Abolition of Man. London: HarperCollinsPublishers, 2002

**41.**Lewis Gordon. The Internet and Young Learners. Oxford University Press, 2004.

**42.**McCarroll N., Curran K. Social Networking in Education. International Journal of Innovation in the Digital Economy, 4(1), 2013, pp.1-15

**43.**Miller M.D. Minds online : Teaching effectively with technology. Cambridge, Massachusetts: Harvard University Press. 2014

**44.**Mills N.A. Facebook and the use of social networking tools to enhance language learner motivation and engagement. Paper presented at the Northeast Association for Language Learning Technology (NEALLT) Conference, Yale University, New Haven, CT. 2009

**45.**Poore M. Using Social Media in The Classroom.Replika press. 2013

**46.** Provan K.G., Fish A., and Sydow J. Interorganizational Networks at the Network Level: A Review of the Empirical Literature on Whole Networks, Journal of Management, 33(3): 2007, pp.479–516

**47.**Ravid G., Kalman Y.M., and Rafaeli S. Wikibooks in higher education: Empowerment through online distributed collaboration. First Monday, 5(3). 2008

**48.**Roblyer M.D., Webb M., and Witty J.V. (2010). Findings on Facebook in higher education: A comparison of college faculty and student uses and perceptions of social networking sites. The Internet and Higher Education, 13(3), 2010, pp.134−140.

**49.**Rohani V.A., Hock O.S. On Social Network Web Sites: Definition, Features, Architectures and Analysis Tools. University of Malaya Kuala Lumpur, Malaysia. 2014

**50.**Schaffhauser D. Boundless opportunity. T.H.E. Journal, 36(9), 2009, pp.13–18.

**51.**Shyamlee S. D., Phil M. Use of Technology in English Language Teaching and Learning: An Analysis. In International Conference on Language, Medias and Culture (Vol. 33, pp. 150-156). 2012

**52.**Stewart K. (2009). Lessons from teaching millennials. College Teaching, 57(2), 2009, pp.111–117.

**53.** Stone B. Is Facebook growing up too fast, The New York Times, March 29, 2009

**54.**Tapscott D. and Williams A. Wikinomics. NewYork, Atlantic, 2007

**55.**Ulbrich F., Jahnke I., and Martensson P. Special Issue on knowledge development and the net generation. International Journal of Sociotechnology and Knowledge Development. 2011

**56.**Underwood J. Correo: Electronic mail as communicative practice. Hispania, 70, 1987, pp.413- 414.

**57.**Ungureanu R. The İnternet and ELT: Costs, gains and compromises. Linguaculture 2, 2013

**58.**Warschauer M. E-mail For English Teaching. Alexandria, VA: TESOL Publications. 1995

**59.**Warschauer M. Electronic literacies: Language, culture, and power in online education. Mahwah, NJ: Lawrence Erlbaum Associates. 2000

**60.**Wiburg K., Butler-Pascoe M. Technology and teaching English language learners. Englewood Cliffs: Prentice Hall. 2002

**61.**Won Kim, Ok-Ran Jeong, Sang-Won Lee: On social Web sites. Information Systems 35, 2010, pp.215– 236

**62.**Young Jeffrey R. ”How Social Networking Helps Teaching (and Worries Some Professors)”. The Chronicle of Higher Education. 22 July 2010. Web. 2013

***İnternet resursları:***

https://www.academia.edu/10620978/English_Language_Teaching_in_the_Internet_assisted_Environment_Issues_in_the_Use_of_the_Web_as_a_Teaching_Medium

https://www.researchgate.net/publication/276082891_The_Internet_and_Elt_Costs_Gains_and_Compromises

http://journal.kolegija.lt/iitsbe/2010/Agarwal-internet-IITSBE-2010-1(8)-3-7.pdf

Nielsen Norman Group Report, "Email Newsletter Usability" Executive Summary, http://www.nngroup.com/reports/newsletters/summary.html(2008). Accessed 2 Dec 2009.

https://www.csueastbay.edu/universitycommunications/social-media-guidelines.html

http://academypublication.com/issues2/tpls/vol05/05/25.pdf